

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 49 (24.484)

20 dekabr 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikasının Ali Məclisi*


# Siyasi iradənin, beynəlxalq rəğbətin ifadəsi olan iqtisadi inkişaf modeli – Azərbaycan



## Prezident İlham ƏLİYEV:

***"Azərbaycan iqtisadiyyatı güclü və fundamental baza üzərində qurulmuşdur. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış "Əsrin Müqaviləsi" qlobal miqyasda nümunəvi əməkdaşlıq modeli kimi tarixə düşmüş, sonrakı illərdə Asiyadan Avropaya qədər uzanan iri transmilli layihələr və logistika şəbəkələrinin inkişafı üçün möhkəm zəmin yaratmışdır."***

Azərbaycanın otuzillik sosial-iqtisadi inkişaf mənzərəsi bu mənzərənin əsasını yaradan Ümummilli Liderimiz Heydər Əliyevin ***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"*** ideyasının praktiki təsdiqidir. Təqdiredici məqamdır ki, bu yanaşma respublikamızın timsalında artıq beynəlxalq miqyasda qəbul olunan, rəğbət qazanan, təsdiqini tapan vahid inkişaf tendensiyasına çevrilib. Bəli, dünya nizamının dəyişilməsi fonunda baş verən qlobal xarakterli ictimai-siyasi proseslər, yeni, innovativ texnologiyaların istehsalata tətbiqi ölkələr arasında gün ötdükcə iqtisadi rəqabəti xeyli artırmaqla dayanıqlıq, davamlılıq prinsiplərini daha da ön plana çıxarır. Prezident İlham Əliyevin praqmatik siyasətinin, məharətli diplomatiyasının nəticəsidir ki, respublikamız nəinki regionda, Cənubi Qafqazda, hətta qitə, materik, dünya səviyyəsində öz iqtisadi müstəqilliyi ilə tanınan, etibar qazanan strateji tərəfdaş statusuna malik olub. Bu etibarlılığın, dostluğun, strateji tərəfdaşlığın əsasında dayanan iqtisadi müstəqillik artıq sona çatmaqda olan 2025-ci ildə özülünü daha da möhkəmləndirdi.

Azərbaycan iqtisadiyyatının unikallığı onun heç bir beynəlxalq təşkilatdan və yaxud da dövlətdən asılı olmaması, başqa sözlə, tam müstəqil inkişaf xəttinə malikliyindədir. Təkcə bir fakta diqqəti çəkmək yetərlidir ki, 30 illik iqtisadi yüksəlişin Azərbaycanı necə müqayisəedilməz səviyyəyə qaldırdığı aydın olsun. Belə ki, reallaşdırılan beynəlxalq əhəmiyyətli iqtisadi, ticari əməkdaşlıqların, icra olunan layihələrin, təşəbbüslərin nəticəsidir ki, ölkəmizin 1 oktyabr 2025-ci il tarixi vəziyyətinə xarici dövlət borcu 4893,1 milyon ABŞ dolları və ya 2025-ci il üzrə proqnozlaşdırılan ÜDM-in 6,4 faizini təşkil edib. Bəli, cəmi 6,4 faiz. Halbuki əksər inkişaf etmiş ölkələrdə bu, 100 faizdən də çoxdur. Azərbaycan yoxsulluğu 49 faizdən 5 faizə endirməyi bacaran ölkədir, halbuki hələ ötən əsrin 90-cı illərinin əvvəlində bu 100 faizə yaxın idi. Məhz Ulu Öndər Heydər Əliyevin sayəsində Azərbaycan uçurumun kənarından, məhv olmaq təhlükəsindən qurtularaq iqtisadi-inkişaf yoluna addımladı, beynəlxalq dəstək qazandı. Prezident İlham Əliyevin dediyi kimi: ***"Pul yox idi, xəzinə boş idi, bizi, demək olar ki, heç kim dəstəkləmirdi. Heç kimdən heç bir əhəmiyyətli beynəlxalq dəstəyimiz yox idi, iqtisadiyyat dağılmışdı, inflyasiya min faiz idi, kütləvi işsizlik, yoxsulluq isə, demək olar ki, 100 faiz səviyyəsində idi. Bax belə bir Azərbaycan var idi. Həmin vaxt Heydər Əliyev hakimiyyətə gəldi. Xalqımızın bəxti onda gətirdi ki, çətin bir zamanda ona müraciət etdi və o da bu ağır yükü öz üzərinə götürdü. Halbuki o, gənc deyildi, artıq 70 yaşı var idi, səhhəti o qədər də yaxşı deyildi, ağır xəstəlik keçirmişdi. Amma məhz onun sayəsində vəziyyəti sabitləşdirmək mümkün oldu. Üstəlik, o vaxt vətəndaş müharibəsi də gedirdi. Biz tədricən ayağa qalxmağa, necə deyərlər, dirçəlməyə başladıq".***

Səhifə ⇨ 2

## A.Ə.Hüseynin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Aida Əli qızı Hüseyn Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri təyin edilsin.
2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 15 dekabr 2025-ci il*

# Siyasi iradənin, beynəlxalq rəğbətin ifadəsi olan iqtisadi inkişaf modeli – Azərbaycan



*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan iqtisadiyyatının müstəqilləşməsi, qüdrətlənməsi yolunda ən vacib amil, sözsüz ki, onun beynəlxalq dəstək qazanması idi. Məhz bu baxımdan, dahi şəxsiyyət Heydər Əliyevin ən mütərəqqi addımı 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi” haqqında 13 iri neft şirkəti arasında Bakıda “Əsrin müqaviləsi”nin bağlanmasını gerçəkləşdirməsi oldu. Bu Azərbaycan neftinin dünya arenasına çıxması ilə iqtisadiyyatın zamanla beynəlxalq səviyyədə dəstəklənməsinə və ölkəmizin ayrı-ayrı sahələrinə – kənd təsərrüfatına, sənayeyə xarici sərmayə axınına yol açdı. “Əsrin müqaviləsi” ilə əsası qoyulan iqtisadi-inkişaf yolunun, enerji diplomatiyasının təntənəsidir ki, bu gün respublikamız 20-dən çox ölkəyə neft ixrac edir. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin 10 ayında Azərbaycandan 21 ölkəyə 20,75 milyon ton neft ixrac edilib. Bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 180 min ton və ya 1 faizə yaxın çoxdur. İqtisadiyyatın güclənməsində böyük pay sahibi olan enerji strategiyası ötən illərdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, TANAP, TAP, Cənub Qaz Dəhlizi kimi layihələrlə daha da genişlənərək mühüm geostrateji əhəmiyyətə malik olub. Nəticə etibarilə, hazırda Avropanın etibarlı enerji təchizatçısına, enerji təhlükəsizliyinin təminatçısına çevrilən respublikamız sözügedən sahədə irəli sürdüyü təşəbbüslərlə nəinki uzaq coğrafiyaları yaxınlaşdırır, yeni, faydalı əməkdaşlıqlara körpü salır, həm də regional sabitliyə və rifaha xidmət missiyasını uğurla yerinə yetirir.

Bu baxımdan, 2025-ci ilin ötən dövrü də mühüm hadisələrlə yadda qalıb, respublikamızın bu il avqustun 2-dən etibarən Suriyaya qaz nəqli də məhz regional sabitliyə, əmin-amanlığa xidmət nümunəsi kimi dəyərləndirilir. Azərbaycan bu gün, Suriya da daxil olmaqla, ümumilikdə, 14 ölkəyə, o cümlədən də 10 Avropa ölkəsinə mavi yanacaq ixrac edir ki, onlardan 8-i Avropa İttifaqının üzvüdür. Boru kəməri ilə qaz ixracatçısı kimi ölkəmiz dünyada liderdir. 2025-ci ilin 9 ayında qaz ixracı 18,3 milyard kubmetr təşkil edib. Bunun 9,4 milyard kubmetri Avropanın, 7,3 milyard kubmetri Türkiyənin (o cümlədən TANAP-la 4,3 milyard kubmetr), 1,6 milyard kubmetrə yaxını isə Gürcüstanın payına düşüb. 2027-ci ilə qədər Azərbaycan qazın tədarükünü ildə azı 20 milyard kubmetrə çatdırmağı hədəfləyib. Göründüyü kimi, Prezident İlham Əliyevin uzaqgörən enerji diplomatiyasının nəticəsində reallaşan bu meqa layihələrin, təşəbbüslərin nəticəsində respublikamız Avropada müstəqil iqtisadi siyasət yürüdən, etibarlı ticarət dostu və strateji tərəfdaş kimi tanınır.

Azərbaycan iqtisadiyyatının gücü, dayanıqlığı həm də onun çoxşaxəliliyindən, eyni zamanda müasir çağırışlara cavab verməsindən, inkişaf yolunu uzaq gələcəyə hədəflənmiş mühüm təşəbbüs və layihələr üzərində qurmasından irəli gəlir. Bu mənada, respublikamızın irəli sürdüyü “yaşıl gündəlik” həm regional, həm də qlobal əhəmiyyət daşımaqla sağlam dünya naminə mühüm iqtisadi-ticari bağlantı yaratmaq məqsədi daşıyır. 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” “yaşıl gündəliy”in beynəlxalq enerji ticarətindəki rolunun əsas istiqamətlərini müəyyənləşdirir. Bu saziş Avropanı “yaşıl enerji” ilə təmin edən əsas kanal kimi Qara dənizin dibi ilə 1100 kilometr uzunluğunda sualtı kabelin çəkilməsini nəzərdə tutur ki, bununla da Azərbaycan Avropaya “yaşıl enerji” körpüsü salacaq. Sözügedən nəhəng layihə beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi, qlobal müstəvidə əməkdaşlığın gücləndirilməsi baxımından olduqca önəmlidir.

Bu xüsusda onu da vurğulamaq yerinə düşər ki, 2021-ci il fevralın 2-də təsdiq edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də ölkəmizin inkişafında əsas götürülən 5 milli prioritetdən, birincisi, məhz “dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat”dır. Həmin prioritetin icrası ilə əlaqədar son illərdə aparılan iqtisadi islahatlar, əlverişli biznes mühitinin formalaşdırılması yeni sənaye və istehsal sahələrinin yaradılmasına səbəb olub ki, bununla da dövlət siyasətinin əsas məqsədi sayılan neftdən asılılıq artıq tamamilə aradan qaldırılmaq üzrədir. Son illərin makroiqtisadi göstəriciləri, aparılan təhlillər də bu sahədə əhəmiyyətli irəliləyişdən xəbər verir. 2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,3 faiz artaraq 3,3 milyard ABŞ dolları təşkil edib. Ümumilikdə, son altı ildə, yəni 2019-2024-cü illərdə qeyri-neft-qaz ixracı 2 dəfə böyüyüb, ixrac edilən əmtəə sayı 15 faiz artaraq 2810-a çatıb.

Azərbaycan iqtisadiyyatının qüdrətlənməsini şərtləndirən yeni istehsal müəssisələrinin yaradılması və özəl sektorun genişlənməsində əsas nüanslardan biri də, sözsüz ki, coğrafi imkanlardan səmərəli istifadə, buna müvafiq təşəbbüslərin uğurla reallaşdırılmasıdır. Bu xüsusda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) layihəsi mühüm əhəmiyyət daşıyır. Müasir nəqliyyat infrastrukturuna malik respublikamız bu dəhliz vasitəsilə Avropa və Asiya arasında ticarət-nəqliyyat bağlantısı yaratmaqla həm də tranzit ölkə kimi kifayət qədər gəlir qazanır. Hər ötən il bu marşrutun yükötürmə qabiliyyəti xeyli artırılır. 2025-ci ildə də bu artım özünü göstərir. Belə ki, Azərbaycan dəmir yolları ilə bu ilin yanvar-sentyabr aylarında Şərq-Qərb (Orta Dəhliz və ya Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) üzrə daşınan yüklərin həcmi 6 faiz artaraq 2 milyon 651 min tona çatıb. Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Türkiyə vasitəsilə Avropaya uzanan bu beynəlxalq nəqliyyat marşrutunun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün davamlı zəmin yaradacaq. Əminliklə demək olar ki, 2028-ci ilin sonuna açılması planlaşdırılan Zəngəzur dəhlizi Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas halqası kimi marşrutun ötürücülük qabiliyyətini dəfələrlə artıraraq ticarət əlaqələrinin güclənməsinə və ölkə iqtisadiyyatının qüdrətlənməsinə mühüm töhfələr verəcək.

Bəli, bu gün Prezident İlham Əliyevin siyasi qətiyyəti, uğurlu diplomatiyası ilə Azərbaycan dünyada, sözün əsl mənasında, böyük nüfuz və rəğbət qazanan unikal iqtisadi-inkişaf modeli formalaşdırıb. İqtisadi qüdrətimizin ən bariz forması özünü bu gün qalib, müzəffər olan güclü ordunun, heç bir xarici maliyyə yardımı almadan yenidən qurulan Qarabağın, respublikamızın beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyinə layiq görülməsinin və ən nəhayət, avqustun 8-də Vaşinqtonda təntənəsini yaşayan diplomatiyanın timsalında göstərir, isbatlayır. Respublikamızın ABŞ, Çin kimi dünya nəhəngləri ilə birgə strateji tərəfdaşlıq yoluna qədəm qoyması, mühüm əməkdaşlıqlara imza atması, bu baxımdan, təsadüfi deyil, praqmatik yanaşma, prinsipial mövqe və ən əsası, iqtisadi müstəqilliyin təntənəsidir. Məhz sahib olduğumuz bu iqtisadi müstəqillik, siyasi qətiyyət bizi 5 il əvvəl müharibə meydanında, bu il isə sülh arenasında qalib etdi. Azərbaycan diplomatiyasının zəfər salnaməsi sayılan Vaşinqton görüşündən sonra Azərbaycanın media nümayəndələrinə müsahibəsində Prezident İlham Əliyevin də dediyi kimi: ***“Həm Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin inkişafında, həm Azərbaycan-Ermənistan normallaşması işində atılan addımlar, Birgə Bəyannamənin qəbul edilməsi, imzalanması və dünyanın ən qüdrətli dövləti olan Amerikanın Prezidentinin buna dəstəyi və şahidlik etməsi bir daha bu Bəyannamənin önəmini göstərir. Mən bu gün mətbuat konfransında da qeyd etdim, biz dünyanın bir nömrəli paytaxtında, dünyanın bir nömrəli ofisində, dünyanın ən qüdrətli Prezidentinin iştirakı ilə bunu etdik. Əlbəttə, hər kəs başa düşür ki, bunun nə qədər böyük əhəmiyyəti var, həm ölkəmiz üçün, həm bölgə üçün, həm geniş coğrafiya üçün. Biz haqq-ədaləti müharibə yolu ilə bərpa etdik. İndi isə buna siyasi müstəvidə də nöqtəni qoyduq”.***

**Nail ƏSGƏROV**

# Əbu-Dabi səfəri: Azərbaycan-BƏƏ hərtərəfli strateji tərəfdaşlığı möhkəmlənir

***Azərbaycan ərəb dünyasının aparıcı ölkələrindən sayılan Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ilə münasibətlərin müxtəlif sahələr üzrə dərinləşməsinə böyük önəm verir. Təqdiredici haldır ki, ötən dövrdə hər iki ölkə Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla beynəlxalq platformalar çərçivəsində uğurlu əməkdaşlıq modeli formalaşdırıblar. Bu xüsusda Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzv olduğu 2012-2013-cü illərdə BƏƏ-nin ölkəmizə göstərdiyi siyasi dəstək dövlətimiz və ictimaiyyətimiz tərəfindən yüksək dəyərləndirilir.***





Ötən müddətdə liderlərin qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə xidmət edib, iqtisadi, siyasi və humanitar əməkdaşlıq üçün geniş imkanlar açıb. Xatırlatmaq lazımdır ki, Prezident İlham Əliyev indiyədək Birləşmiş Ərəb Əmirliklərinə 6, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə Azərbaycana 3 səfər edib. Bu səfərlər iki ölkə arasında strateji dialoqun və qarşılıqlı etimadın möhkəmlənməsi prosesinə təkan verən birgə mühüm fəaliyyət istiqamətləri müəyyənləşdirib. Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkəyə növbəti səfəri də "Gələcəyin Oyunları 2025" qlobal idman turnirinin açılış mərasimində iştirakla paralel, həm də Azərbaycan-BƏƏ strateji tərəfdaşlığının möhkəmlənməsi, iqtisadi və humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin regionda stabilliyin qorunması baxımından böyük siyasi əhəmiyyət daşıyır.

Dünyada və regionda baş verən müxtəlif ictimai-siyasi proseslərə rəğmən Azərbaycanla BƏƏ arasında diplomatik əlaqələr hər zaman yüksək səviyyədə olub. Birləşmiş Ərəb Əmirlikləri 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdəndir. Bir il sonra isə hər iki respublika arasında diplomatik münasibətlər qurulub və 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə iki ölkə arasında münasibətlər dostluq zəminində yüksək trayektoriya qazanıb. BƏƏ daim Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə öz dəstəyini ifadə edib. 2024-cü ilin yanvarında BƏƏ Prezidentinin Azərbaycana ilk rəsmi səfəri zamanı "Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu"nun imzalanması, 2025-ci ilin sentyabrında isə "Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə"nin qüvvəyə minməsi ikitərəfli əlaqələrin tarixində yeni səhifə açıb. Prezident İlham Əliyev bu bəyannamənin siyasi əlaqələri ən yüksək səviyyəyə qaldırdığını vurğulayıb: ***"İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".***

Azərbaycan-BƏƏ iqtisadi münasibətlərinin inkişafında enerji sektoru xüsusi çəkiyə və rola malikdir. Bu da təsadüfi deyildir. Çünki zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan ilbəil bu sahədə imkanlarını daha da şaxələndirir və eyni zamanda da elektrik enerjisi, əsasən də, "yaşıl enerji"nin önəmli təchizatçısına çevrilmək təşəbbüsləri ilə çıxış edir. Bu mənada, Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasının – Qaradağ Günəş Elektrik Stansiyasının məhz BƏƏ şirkətinin investisiyası hesabına tikilib istifadəyə verilməsi də olduqca uğurlu, faydalı əməkdaşlıqdan xəbər verir. Gələcəkdə Qarabağda, Şərqi Zəngəzurda və Naxçıvanda qeyri-neft sektoru, sənaye, "yaşıl enerji" üzrə yeni layihələrin icrasında BƏƏ şirkətlərinin yaxından iştirakı bölgədə iqtisadi həyatın yüksəlişinə güclü təsir göstərəcək. Ümumilikdə, indiyədək Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında siyasi, iqtisadi, enerji, humanitar və mədəni sahələri əhatə edən 50-dən çox ikitərəfli sənəd imzalanıb ki, bu da münasibətlərin institusional əsaslar üzərində inkişaf etdiyini təsdiqləyir. Dekabrın 17-də Əbu-Dabidə Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşündə də strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpa olunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulandı. Dövlətimizin başçısının BƏƏ-yə, BƏƏ Prezidentinin isə Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq bütün bunların və müxtəlif səviyyələrdə həyata keçirilən digər qarşılıqlı səfərlərin münasibətlərimizin inkişafında roluna toxunuldu.



Prezident İlham Əliyevin Əbu-Dabiyə səfərinin əsas məqsədlərindən biri də, təbii ki, Azərbaycan liderinin "Gələcəyin Oyunları 2025" qlobal idman turnirinin açılış mərasimində iştirakıdır. Bu xüsusda onu vurğulamaq olar ki, idmanın inkişafına böyük önəm verən, 2015-ci ilin Avropa Oyunlarını, 2017-ci ilin İslam Həmrəylik Oyunlarını və builki MDB Oyunlarını yüksək səviyyədə təşkil edən Azərbaycanın bu qlobal turnirin açılışında ali səviyyədə təmsil olunması aparılan uğurlu dövlət idman siyasətinə beynəlxalq rəğbətin ifadəsi kimi dəyərləndirilir. Bu eyni zamanda hər iki ölkə liderinin şəxsi münasibətinin göstəricisi, xalqlarası tarixi-mədəni bağlılığın növbəti təcəssümüdür. Qeyd etmək yerinə düşər ki, "Gələcəyin Oyunları" hər il təşkil olunması nəzərdə tutulan qlobal idman turniridir. Turnir iki mərhələdə həyata keçirilir. İlk mərhələdə idmançılar fiziki idman növləri üzrə yarışırlar. İkinci mərhələdə isə idmançıların rəqəmsal oyunlar üzrə bacarıqları sınaqdan keçirilir. "Növbəti nəsil insanlar. Gələcəyin oyna" devizi altında təşkil olunan turnirdə müxtəlif ölkələrdən idmançılar, ümumilikdə, 11 idman növü üzrə yarışacaqlar. Ötən il BƏƏ 9 iddiaçı namizəd arasında qalib gələrək 2025-ci ildə keçiriləcən "Gələcəyin Oyunları" turnirinə ev sahibliyi etmək hüququ qazanıb.

Əminliklə demək olar ki, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri, səfər çərçivəsində keçirilən görüş həm də bu il iyulun 9-da imzalanmış "Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi"nin reallaşdırılması prosesini daha da sürətləndirəcək. Bu Saziş ticarət həcmlərinin artırılması, investisiya axınlarının şaxələndirilməsi, innovasiya və yaşıl texnologiyalar sahələrində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Şübhəsiz ki, həmin istiqamətlər üzrə tərəflərin birgə fəaliyyəti gələcəkdə dünya düzəninin nizama salınmasında, beynəlxalq iqtisadi-ticari münasibətlərin tənzimlənməsində, eyni zamanda davamlı regional sülhün, sabitliyin təmin olunmasında mühüm faktor rolunu oynayacaq.

**"Şərq qapısı"**

# Səlahiyyətli nümayəndə Böyük Britaniya nümayəndə heyəti ilə görüşüb



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Böyük Britaniyanın Azərbaycan üzrə ticarət elçisi Lord Olderdays və "Xlinks" şirkətinin nümayəndə heyəti ilə görüşüb.

Söhbət zamanı Prezident İlham Əliyevin səyləri nəticəsində iki ölkə arasında strateji tərəfdaşlıq, dostluq və etimada əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi, Böyük Britaniya şirkətlərinin Azərbaycanda uzunmüddətli və faydalı fəaliyyəti xüsusi vurğulanıb. Həmçinin Azərbaycanla Ermənistan arasında sülh gündəliyi çərçivəsində əldə olunan razılaşmalardan məmnunluq ifadə olunaraq işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərinə Böyük Britaniya şirkətlərinin mühüm töhfə verdiyi qeyd edilib.

Naxçıvan Muxtar Respublikasının bərpa olunan enerji imkanları və Orta Dəhliz üzrə kommunikasiyaların qurulmasında mühüm strateji bölgə kimi önəminə diqqət çəkilib, qeyd olunan istiqamətlərdə, eləcə də Naxçıvan şəhərinin Baş planının icrasında əməkdaşlığın perspektivləri və digər maraqdoğuran məsələlər müzakirə olunub.

# Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov Nehrəm qəsəbəsinin ictimaiyyəti ilə görüşüb





Dekabrın 13-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Daha sonra səlahiyyətli nümayəndə Nehrəm qəsəbəsinin ağsaqqalları ilə görüş keçirib. Görüş zamanı Ümummilli Lider Heydər Əliyevin 1990-cı ilin iyul ayında Naxçıvana qayıdışından sonra ilk olaraq məhz Nehrəm qəsəbəsinə gəlməsi xatırlanıb və Ulu Öndərin yerli ictimaiyyətlə görüşünün tarixi əhəmiyyəti vurğulanıb.

Sonra Ceyhun Cəlilov Nehrəm qəsəbəsində vətəndaşları qəbul edib.

Qəbulda 80-ə yaxın sakinin, o cümlədən şəhid ailələri üzvlərinin və müharibə iştirakçılarının müraciətləri dinlənilib. Qəbul zamanı sakinlər, əsasən, sosial təminat, məşğulluq, əlillik, reabilitasiya və digər məsələlərə toxunublar.

Səlahiyyətli nümayəndə qaldırılan məsələlərin hər birinin qanunvericiliyin tələblərinə uyğun şəkildə araşdırılacağını və həlli istiqamətində müvafiq tədbirlərin görüləcəyini bildirib.







# Rəqəmsal inkişaf və nəqliyyat naziri Naxçıvan Muxtar Respublikasına səfər edib



Dekabrın 18-də Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.



# Naxçıvan Dövlət Universitetində İnnovasiya Mərkəzinə baxış keçirilib

Dekabrın 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Naxçıvan Dövlət Universitetində İnnovasiya Mərkəzinin fəaliyyəti ilə tanış olublar.

Məlumat verilib ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə yaradılan mərkəzdə 5 laboratoriya, 2 kompüter sinfi, 2 kovörkinq otağı, akt zalı və server otağı yaradılıb. Bu imkanlardan yararlanmaqla müasir texnoloji həllər hazırlanır və sınaqdan keçirilir. Bu məqsədlə müasir Aparat və Proqram Təminatı Laboratoriyası, ideyaların prototiplərə və praktik layihələrə çevrilməsi istiqamətində Texnologiya və Mühəndislik Laboratoriyası fəaliyyət göstərir. İnnovatorlar, tələbələr və elmi yeniliklərlə maraqlanan hər kəs mərkəzin imkanlarından istifadə edə bilər.





Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev mərkəzdə keçirilən praktiki dərslərlə maraqlanıb, tələbələrin fikirlərini dinləyiblər.

# Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı yaradılmış komissiyanın heyəti Naxçıvana səfər edib



Dekabrın 19-da "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış komissiyanın üzvləri Naxçıvan Muxtar Respublikasına səfər ediblər.

Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və komissiyanın üzvləri Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.





## Naxçıvanda su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair komissiyanın iclası keçirilib





Dekabrın 19-da Naxçıvanda "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın üzvlərinin iştirakı ilə iclas keçirilib.

Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Prezident İlham Əliyevin Naxçıvanın inkişafına xüsusi diqqət göstərdiyini vurğulayaraq qeyd edib ki, muxtar respublikaya böyük investisiyalar yönəldilir, o cümlədən su təchizatı sahəsində məqsədyönlü tədbirlər görülür. Ölkə başçısının tapşırığına uyğun olaraq muxtar respublika əhalisinin su təminatının yaxşılaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet istiqamətləri sı-



rasında əhalinin içməli və suvarma suyu ilə təminatının təkmilləşdirilməsi tədbirlərinin də öz əksini tapdığını vurğulayıb. Qeyd edib ki, komissiya üzvlərinin iştirakı ilə aparılacaq müzakirələr bu istiqamətdə problemlərin daha əhatəli həllini tapmasına şərait yaradacaq.

Görüşdə muxtar respublikada su təminatı və suvarma sistemlərinin fəaliyyəti qiymətləndirilib, su ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin olunması ilə bağlı aktual məsələlər müzakirə edilib.

## Ümummilli Liderin abidəsi və Heydər Əliyev Muzeyi ziyarət olunub

Dekabrın 17-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yeni təyin olunmuş sədri Aida Hüseyn Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər.

Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub. Muzeydə Ulu Öndərin zəngin dövlətçilik irsi, çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən mənalı ömrünün Naxçıvan mərhələsi haqqında ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, burada Ulu Öndərin ailəsinə, Onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid sənəd və materiallar, imzaladığı məktub, qərar, sərəncam və müqavilələrin surətləri nümayiş olunur.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov muzeyin xatirə kitabına ürək sözlərini yazıb.



## Ali Məclisin 2025-ci il payız sessiyasının növbəti iclası keçirilib



Dekabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçirilib.

İclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (birinci oxunuş), "Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (ikinci oxunuş) və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin (birinci oxunuş) müzakirəsi məsələləri daxil edilib.

Gündəlikdə duran birinci məsələnin müzakirəsi zamanı Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov bildirib ki, Ali Məclis komitələrinin birgə iclasında "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Qanun layihəsi müzakirə olunub və layihənin Ali Məclisin növbəti iclasına təqdim olunması qərara alınıb.

Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsi barədə danışıb, Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Həsən İsmayılov "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büd-



cəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə əlaqədar çıxış edib.

Azərbaycan Respublikası Hesablama Palatasının auditoru, Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi Hafiz İsmayılbəyli büdcə layihəsinin təhlilinə dair analitik fəaliyyət üzrə Auditor Hesabatını diqqətə çatdırıb.

Qanun layihəsi ilə əlaqədar deputatlardan Şəhla Əhmədova, Canməmməd Canməmmədov, Mövlan Məmmədov, Azad Novruzov və Rafiq Novruzov çıxış etdikdən sonra İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev qanun layihəsinə dair komitənin rəyini diqqətə çatdırıb.

"Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

İclasın gündəliyində duran ikinci məsələnin müzakirəsi zamanı Bəxtiyar Məmmədov bildirib ki, qanun layihəsi Ali Məclisin 7 noyabr 2025-ci il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilib, təqdim edilən təkliflər və iradlar nəzərə alınaraq layihə üzərində iş davam etdirilməklə Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunub.

"Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsnin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran sonuncu məsələ – "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.







## Ali Məclis sədrinin birinci müavini Ordubad şəhərində seçiciləri ilə görüşüb

Dekabrın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədov Ordubad şəhərində seçiciləri ilə görüşüb.

Görüşdən əvvəl Ümummilli Lider Heydər Əliyevin Ordubad şəhərində ucalan abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Sonra İcra Hakimiyyətinin inzibati binasında keçirilən görüşdə müraciətlərin hər birinin həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi qeyd olunub.

## Ali Məclisin 2025-ci il payız sessiyasının növbəti iclası keçirilib

Dekabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının növbəti iclası keçirilib.

Ali Məclis sədrinin birinci müavini diqqətə çatdırıb ki, bugünkü iclasın gündəliyinə 4 məsələ daxil edilib.

Gündəlikdə duran birinci məsələnin – "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə bağlı bildirilib ki, qanun layihəsi 15 dekabr 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinə uyğun olaraq birinci oxunuşda müzakirə edilib, onun üzərində iş davam etdirilməklə Ali Məclisin qərarı ilə birinci oxunuşda qəbul olunub. Layihənin İqtisadi siyasət komitəsində müzakirə edilərək ikinci oxunuş üçün Ali Məclisin iclasına təqdim olunması qərara alınıb.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev məlumat verib, qanun layihəsi səsə qoyularaq əsas kimi qəbul edilib.

İclasda qanunun maddə-maddə müzakirəsinə başlanılıb.

*ardı 6-cı səhifədə*

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Elvin Əlimərdanov "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanun layihəsini gəlir və xərc istiqamətləri üzrə maddələrlə diqqətə çatdırıb.



Mövzu ilə bağlı deputatlardan Bəhruz Məmmədov və Məmməd Məmmədov çıxış ediblər.

Sonra "Naxçıvan Muxtar Respublikasının 2026-cı il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Gündəlikdə müzakirə olunan – üçüncü oxunuşda olan "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclasda "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi zamanı Bəxtiyar Məmmədov qeyd edib ki, qanun layihəsi Ali Məclisin 15 dekabr 2025-ci il tarixdə keçirilmiş plenar iclasında müzakirə edilib, Ali Məclisin protokol qaydasında qərarı ilə birinci oxunuşda qəbul olunub.

Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verdikdən sonra səsvermə keçirilərək qanun qəbul edilib.



Gündəlikdə duran sonuncu məsələ – "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı Ali Məclis sədrinin birinci müavini bildirib ki, "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması məqsədilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb, deputatlara paylanılıb. Layihə Hüquq siyasəti komitəsinin iclasında müzakirə olunub.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib və komitənin rəyini diqqətə çatdırıb, Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyasının sədri Vüsal Həsənov müvafiq qanuna edilən dəyişikliklərin əhəmiyyətini vurğulayıb, deputat Kamil Şükürov qanun layihəsi ilə bağlı çıxış edib, təklifini çatdırıb.

Sonra "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub.

Bununla da Ali Məclisin növbəti iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının

## Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1.3-cü və 75.0.2.3-cü maddələr ləğv edilsin.

2. 84-cü maddə üzrə:

2.1. "84.0.", "84.0.1.", "84.0.2." və "84.0.3." rəqəmləri müvafiq olaraq "84.1.", "84.1.1.", "84.1.2." və "84.1.3." rəqəmləri ilə əvəz edilsin;

2.2. aşağıdakı məzmunda 84.2-ci maddə əlavə edilsin:

"84.2. Bu Qanunun 84.1.3-cü maddəsinə uyğun olaraq normativ hüquqi akt (onun struktur elementi) Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir.".

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 19 dekabr 2025-ci il*

## Naxçıvan Muxtar Respublikasında rəqəmsal inkişaf sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, muxtar respublikada rəqəmsal inkişaf sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Naxçıvan Telekom" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzi" publik hüquqi şəxs birləşdirilməklə onların əsasında Nazirliyin tabeliyində "Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılsın.

2. "Naxçıvan Poçt və Telekommunikasiya Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra – Cəmiyyət) ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

2.1.1. Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi;

2.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə:

2.2.1. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, tabeliyindəki hüquqi şəxs statuslu qurumların yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

2.3. Nazirliyə:

2.3.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Cəmiyyətin icra orqanının rəhbərinin və onun müavininin (müavinlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.3.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Cəmiyyətin strukturunun, işçilərinin say həddinin və əməkhaqqı sisteminin müəyyən olunması;

2.3.3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Cəmiyyətin nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.3.4. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Cəmiyyətin tabeliyində hüquqi şəxs statuslu qurumların (törəmə və asılı cəmiyyətlərin) yaradılması, yenidən təşkili və ya ləğv edilməsi;

2.3.5. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılması və ya ləğv edilməsi;

2.3.6. Cəmiyyətin xərclər smetasının təsdiq edilməsi;

2.3.7. Cəmiyyətin icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.3.8. Cəmiyyətin müşahidə şurasının seçilməsi və onun səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.3.9. Cəmiyyətin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

2.3.10. Cəmiyyətin illik hesabatlarının və maliyyə hesabatlarının təsdiq edilməsi, onun mənfəətinin və zərərinin bölüşdürülməsi;

2.3.11. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

2.3.12. bu Fərmanda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həll edilməsi.

3. Müəyyən edilsin ki:

3.1. Cəmiyyət bu Fərmanın 1-ci hissəsində göstərilən qurumların hüquqi varisidir, həmin qurumların hüquq və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir;

3.2. Cəmiyyət dövlət qeydiyyatına alınanadək bu Fərmanın 1-ci hissəsində göstərilən qurumlar əvvəlki qaydada fəaliyyətlərini davam etdirirlər, işçilərin əməkhaqqı sistemi və qulluq funksiyaları olduğu kimi saxlanılır.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

4.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

4.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin.

5. Nazirlik:

5.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində Cəmiyyətin nizamnaməsini təsdiq etsin və ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin;

5.2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə bu Fərmanın 1-ci hissəsində göstərilən qurumların istifadəsində olan dövlət əmlakının inventarizasiyasını apararaq, həmin əmlakın Cəmiyyətə verilməsini təmin etsin;

5.3. Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini**
**Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 17 dekabr 2025-ci il*

## Naxçıvan Muxtar Respublikası Dövlət Arxiv İdarəsinin bir qrup əməkdaşının təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında arxiv işi sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə" nişanı ilə**

Məmmədhəsənov Cəfər Vaqif oğlu

**"Rəşadətli əməyə görə" nişanı ilə**

Bağırova Aynurə Əsgər qızı
Bağırova Sona Fərəməz qızı
Qasımova Xədicə İsmayıl qızı
Quliyeva Lətifə Lətif qızı
Quliyeva Solmaz Lətif qızı.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Bəxtiyar MƏMMƏDOV**

*Naxçıvan şəhəri, 17 dekabr 2025-ci il*

# Ali Məclisin Hüquq siyasəti komitəsinin iclası keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinin birinci oxunuşda qəbul edilən "Normativ-hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası qanunlarının layihələrinin müzakirəsi olduğunu bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə əlaqədar məlumat verilib, Qanun layihəsinin Ali Məclisin plenar iclasında ikinci oxunuşda müzakirəsinə təqdim olunması ilə bağlı qərar qəbul edilib.

İclasda gündəlikdə duran ikinci məsələ ilə bağlı Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini, müdir vəzifələrini müvəqqəti icra edən Tofiq Rəcəbli məlumat verib.

Sonda "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi Ali Məclisin plenar iclasının müzakirəsinə təqdim olunub.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə ikinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" və "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihələrinin müzakirəsinin daxil edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ ilə əlaqədar məlumat verilib, qanun layihəsinin Ali Məclisin plenar iclasında ikinci oxunuşda müzakirəsinə təqdim olunması ilə bağlı qərar qəbul olunub.

İclasın gündəliyində olan ikinci məsələ – "Naxçıvan Muxtar Respublikasının Vəkillər Kollegiyası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi ilə bağlı Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdir müavini, müdir vəzifələrini müvəqqəti icra edən Tofiq Rəcəbli məlumat verib.

Gündəlikdə duran məsələ ətrafında müzakirələr aparıldıqdan sonra komitənin rəyi oxunub, qanun layihəsi Ali Məclisin iclasının gündəliyinə daxil edilməsi tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvan və Urumçi şəhərləri arasında iqtisadi əməkdaşlığa dair onlayn görüş olub

Dekabrın 18-də Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Urumçi şəhəri arasında rəsmi şəxslərin və işgüzar dairələrin iştirakı ilə iqtisadi əməkdaşlığa həsr olunmuş onlayn görüş təşkil edilib.

Görüşdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, Urumçi şəhərinin meri Yaxub Paydulla, eləcə də hər iki tərəfi təmsil edən rəsmi şəxslər və şirkət nümayəndələri iştirak ediblər.



Onlayn görüş zamanı Naxçıvan şəhəri ilə Urumçi şəhəri arasında iqtisadi əlaqələrin cari vəziyyəti və inkişaf perspektivləri ətrafında geniş müzakirələr aparılıb. Tərəflər sənaye, kənd təsərrüfatı, logistika və digər sahələrdə ticarət və investisiya imkanlarını nəzərdən keçiriblər.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev çıxışında regionlararası əməkdaşlığın genişləndirilməsinin və sözügedən şəhərlər arasında biznes əlaqələrinin möhkəmləndirilməsinin vacibliyini vurğulayıb, bu istiqamətdə qarşılıqlı təşəbbüslərin əhəmiyyətini qeyd edib.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev çıxışında Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının Çin ilə ticarət əlaqələri, Urumçi şəhəri iqtisadi əməkdaşlıq potensialının reallaşdırılması imkanları barədə ətraflı məlumat verib.

Urumçi şəhərinin meri Yaxub Paydulla Urumçinin Çinin mühüm bölgələrindən biri olduğunu qeyd edərək iki şəhər arasında əməkdaşlığın inkişafı üçün yeni imkanların formalaşdığını diqqətə çatdırıb.

Görüş çərçivəsində Urumçi şəhərinin sənaye potensialını əks etdirən videoçarx, Urumçi ticarət qurumu və Urumçi Sənaye və İnformasiya Texnologiyaları İdarəsi tərəfindən öz fəaliyyət istiqamətləri barədə, həmçinin Naxçıvan Muxtar Respublikasının investisiya imkanları haqqında, eləcə də hər iki tərəfin sahibkarlıq subyektlərinin öz məhsul və xidmətlərinə dair təqdimatları nümayiş olunub.

Onlayn görüş zamanı şirkət nümayəndələri arasında əməkdaşlıq edilə biləcək istiqamətlər üzrə fikir mübadiləsi aparılıb, qarşılıqlı maraqdoğuran sahələr üzrə təkliflər səsləndirilib.

Görüşün sonunda tərəflər gələcəkdə əlaqələrin daha da genişləndirilməsi və konkret əməkdaşlıq layihələrinin reallaşdırılması istiqamətində işlərin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

# "Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu" mövzusunda III Beynəlxalq Simpozium

Dekabrın 16-da Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı, Türkiyənin bir sıra qabaqcıl universitet və texnoparklarının tərəfdaşlığı ilə "Texnoparkların təhsildə və iqtisadi inkişafda rolu" mövzusunda III Beynəlxalq Simpoziumun açılışı olub.



Simpoziumun məqsədi texnoparkların müasir təhsil sistemində və iqtisadi inkişafda rolunu elmi əsaslarla müzakirə etmək, beynəlxalq təcrübəni bölüşmək və yeni əməkdaşlıq imkanlarını dəyərləndirməkdir.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev açılış nitqində bildirib ki, Azərbaycan Respublikası Prezidentinin "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi barədə Fərmanı bu sahədə dövlət siyasətinin əsas çərçivəsini müəyyən edib. Rektor qeyd edib ki, texnoparklar dünya universitetlərində geniş tətbiq olunsa da, Azərbaycan ali təhsil sistemi üçün yeni və strateji əhəmiyyət daşıyan istiqamətdir. Bu baxımdan, beynəlxalq təcrübənin öyrənilməsi prioritet hesab olunur. Elbrus İsayev vurğulayıb ki, Naxçıvan Dövlət Universiteti, xüsusilə qardaş Türkiyənin aparıcı universitetlərinin texnopark təcrübəsini öyrənir, bu məqsədlə qarşılıqlı səfərlər həyata keçirilib və nüfuzlu texnologiyalar parklarının fəaliyyəti ilə yerində tanışlıq olub. Rektor bildirib ki, universitetdə dörd hektar ərazidə Texnologiyalar Parkının yaradılması istiqamətində işlərə başlanılıb, layihələndirmə mərhələsi başa çatıb. Rektor əlavə edib ki, universitet ərazisində fəaliyyət göstərən İnnovasiya Mərkəzi yeni innovatorların yetişməsi və texnoparkın fəaliyyətinə mühüm dəstək rolunu oynayacaq.

Simpozida çıxış edən Türkiyə Cümhuriyyətinin İstanbul Universitetinin İqtisad fakültəsinin dekanı, professor Mahmut Cüneyt Yenigün universitetlərin dövlət, sənaye və iqtisadiyyat arasında əsas əlaqələndirici rol oynadığını bildirib. Professor texnoparkların elmi-tədqiqat nəticələrinin praktik tətbiqə və iqtisadi dəyərə çevrilməsində mühüm mexanizm olduğunu qeyd edib.

İstanbul Universiteti – Cərrahpaşanın professoru Tülin Öztürk tibb sahəsində texnoparkların roluna toxunaraq bu istiqamətdə aparılan elmi araşdırmaların innovativ məhsulların yaranmasına imkan verdiyini vurğulayıb.

Tədbirdə, həmçinin Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanı Əşrəf Ələkbərov, Düzce Universitetinin dosenti Özkan Şahin, Harran Universitetinin dosenti Hasan Bardakçı, Azərbaycan Turizm və Menecment Universitetinin dosenti Vüqar Nəzərov, TÜBİTAK MARTEK Texnoparkının direktor müavini Deniz Yayla, Entertech İstanbul Texnoparkının direktoru Muhammed Kasapoğlu, Düzce Texnoparkının direktoru, professor Resul Kara və Zonquldak Texnoparkının direktoru Ferdi Kesikoğlunun çıxışları dinlənilib.

Simpozium öz işini bölmə iclasları ilə davam etdirib.

# "Autizm spektr pozuntusu üzrə etik terapiya modeli və inkişaf strategiyaları" adlı elmi konfrans

Dekabrın 17-də "Autizmli Uşaqlara Dəstək" İctimai Birliyinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin tərəfdaşlığı və "Regional İnkişaf" İctimai Birliyinin dəstəyi ilə "Autizmli Uşaqlara Dəstək" İctimai Birliyinin bir illiyinə həsr olunmuş "Autizm spektr pozuntusu üzrə etik terapiya modeli və inkişaf strategiyaları" elmi konfransı keçirilib.

Qonaqları salamlayan "Autizmli Uşaqlara Dəstək" İctimai Birliyinin sədri Ayaz Seyidli tədbirin əhəmiyyətindən bəhs edərək AUDİB-in yaranma məqsədləri, ötən bir il ərzində həyata keçirilən layihələr, autizmli uşaqların sosial inteqrasiyası və cəmiyyətin bu mövzuda maarifləndirilməsi istiqamətində görülən işlər barədə hesabat təqdim edib.

Daha sonra çıxış edənlər – Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Aparat rəhbəri Xavər Babayeva, Naxçıvan Dövlət Universiteti Yeni Azərbaycan Partiyası ərazi təşkilatının sədri Bəhruz Məmmədov, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Həsən Əliyev, Türk Dünyası Media, Reklam və Marketing Birliyinin qurucusu Xəyalə Mütəllimova və "Regional İnkişaf" İctimai Birliyinin nümayəndəsi Günay Ağayeva autizm spektr pozuntusundan əziyyət çəkən uşaqların erkən diaqnostikası, reabilitasiyası, təhsilə və cəmiyyətə inteqrasiyasının vacibliyini vurğulayıblar.

Konfrans daha sonra Milli



QHT Forumunun İdarə Heyətinin üzvü Zaur İbrahimlinin moderatorluğu ilə "Autizm üzrə gələcək yanaşmalar: Multidissiplinar dəstək, elmi yanaşmalar və milli strategiyalar" və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Ailə, qadın problemləri və gender məsələləri şöbəsinin müdiri Könül Babayevanın moderatorluğu ilə "Autizmin elmi əsasları, hüquqlar və ticarətləşmənin qarşısının alınması" mövzularında panel sessiyalarla işini davam etdirib.

Tədbirin sonunda konfrans iştirakçılarına təşəkkürnamələr təqdim edilib.

# "Dövlət qulluğunda vətəndaş məmnunluğunun təmin edilməsi" mövzusunda onlayn təlim keçirilib

Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Təlim Mərkəzinin birgə təşkilatçılığı ilə "Dövlət qulluğunda vətəndaş məmnunluğunun təmin edilməsi" mövzusunda onlayn təlim təşkil olunub.



Təlimdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət orqanlarının 63 əməkdaşı iştirak edib. Onlayn təlimi Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının baş müəllimi Anar Həsənov aparıb.

Təlim zamanı dövlət qurumlarında vətəndaş yönümlü idarəetmə modelinin formalaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi və institusional imicin gücləndirilməsi məsələləri ətraflı şəkildə izah edilib. Xüsusilə dövlət qurumunun imicinin düzgün yaradılması və bu imicə təsir edən əsas amillər praktiki nümunələr əsasında iştirakçıların diqqətinə çatdırılıb.

Təlimdə, həmçinin dövlət qurumlarının vətəndaşlara xidmət sahəsində imicinə müsbət təsir göstərən əsas amillər xüsusi vurğulanıb. Bu çərçivədə sürət və əlçatanlığın artırılması, gözləmə vaxtlarının azaldılması, onlayn xidmətlərin sadə və funksional olması, eləcə də müraciətlərə vaxtında və əsaslandırılmış cavab verilməsinin əhəmiyyəti qeyd olunub.

Bundan əlavə, ünsiyyətdə "insan dili"nin önə çəkilməsi, quru hüquqi terminlər əvəzinə vətəndaş üçün anlaşılan izahların verilməsi, "qanuna əsasən" ifadəsi ilə yanaşı, vətəndaşın real olaraq nə edə biləcəyini göstərən yanaşmanın vacibliyi iştirakçıların diqqətinə çatdırılıb.

Təlim interaktiv müzakirələr və praktik nümunələrlə müşayiət olunub, iştirakçıların sualları cavablandırılıb və mövzu üzrə praktiki tövsiyələr verilib.

# Akademik Yusif Məmmədəliyev Azərbaycan elminin yetirdiyi parlaq simalardandır



2025-ci ilin dekabr ayının 31-də dünyaşöhrətli alim, ictimai xadim, maarifçi, Azərbaycan Respublikası Elmlər Akademiyasının təşkilatçılarından biri, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, kimya elmləri doktoru, professor, akademik Yusif Heydər oğlu Məmmədəliyevin anadan olmasının 120 ili tamam olur. Azərbaycan elminin inkişafına verdiyi misilsiz töhfələrini nəzərə alaraq akademik Yusif Məmmədəliyevin anadan olmasının 120 illiyinin keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2025-ci il 5 iyul tarixdə Sərəncam imzalamışdır.

Yusif Heydər oğlu Məmmədəliyev 1905-ci il dekabrın 31-də Ordubad şəhərində anadan olmuşdur. O, təhsilini evdə və yeni tipli Ordubad məktəbində almışdır. 1918-ci ildə erməni daşnaklarının vəhşiliyindən yaxa qurtarmaq üçün onun ailəsi Təbriz şəhərinə köçmüş və orada yeddiillik Rüşdiyyə məktəbində təhsilini davam etdirmişdir. 1920-ci ildə Ordubada qayıtmış və 1923-cü ilə qədər müəllimlik edərək savadsızlığın ləğvində fəal iştirak etmiş və ilk qızlar məktəbini açmışdır. 1923-cü ildə Azərbaycan Pedaqoji Universitetinin Hazırlıq fakültəsində oxumuş və sonra 1924-1926-cı illərdə orada Təbiət elmləri fakültəsində ali təhsil almışdır. 1929-cu ildə kimyadan biliklərini dərinləşdirmək məqsədilə Moskva Dövlət Universitetinin Kimya fakültəsinə qəbul olmuş və 1931-ci ildə oranı bitirmişdir. Diplom işini keçmiş SSRİ Elmlər Akademiyasının akademiki N.Zelinskinin rəhbərliyi ilə yerinə yetirmişdir. Elmi-tədqiqat işlərinə böyük maraq göləcək böyük alimi Azərbaycan Elmi-Tədqiqat Neft Emalı İnstitutuna gətirmişdir. Həmin İnstitutda laborantlıqdan akademikliyə qədər şərəfli yol keçmişdir.

Yusif Məmmədəliyev hələ Moskva zavodlarının birində işləyərkən neft qazlarından qiymətli kimya məhsullarının alınması sahəsində tədqiqatlar aparmışdır. Bu ideya onun gələcək elmi-tədqiqat işlərinin istiqamətini müəyyən etmişdir. O, dünyada ilk dəfə olaraq neft qazlarından sintetik kauçukun alınması ideyasını irəliyə sürmüş və 1933-cü ildə "Etil spirtinin neft qazlarından alınması üsulu" adlı elmi əsərini çap etdirmişdir. 1934-cü ildə kauçuk ilə əlaqədar olaraq "Azərbaycanda süni kauçukun problemləri" ikinci məqaləsini nəşr etdirmiş və bununla da respublikada sintetik kauçukun yaradılmasının mümkünlüyünü əsaslandırmışdır. Bu ideya 1953-cü ildə, keçmiş SSRİ-də ilk dəfə Sumqayıtda sənaye miqyasında etil spirtindən butadien və onun əsasında butadien-stirol kauçukun alınması ilə həyata keçirilmişdir. Yeri gəlmişkən, onu qeyd etmək lazımdır ki, Y.Məmmədəliyev ömrünün son illərində Sumqayıt kimya kombinatının layihəsini tərtib edən komissiyanın sədri olmuşdur.

Yusif Məmmədəliyevin elmi fəaliyyətində neft qazlarının emalı, onlardan tullantısız texnologiya əsasında səmərəli xammal kimi istifadə edilməsi xüsusi yer tutur. O bu sahədə aparılan tədqiqat işlərini ümumiləşdirərək 1936-cı ildə "Azərbaycanın təbii və süni qazları və onların kimyəvi emalı" monoqrafiyasını çap etdirmişdir. 1930-cu ildə nəşr edilən "Azərbaycanda hidrogen problemi" öz əhəmiyyətini bu gün də itirməmişdir. Çünki bütün dünya alimlərinin qarşısında ekoloji cəhətdən daha təmiz yanacaq olan hidrogenin iqtisadi cəhətdən səmərəli üsulla alınması bu gün də problem kimi qarşıda durur.

Yusif Məmmədəliyev tərəfindən təbii qazların halogenləşməsi reaksiyaları daha sistemli şəkildə aparılmışdır. O, 1939-cu ildə ilk dəfə dünya təcrübəsində yarımsənaye qurğusunda metandan stasionar katalizator təbəqəsində, sonralar "qaynar katalizator lay" reaktorunda dördxlorlu metan (karbon dörd xlorid) istehsal etmişdir. 1938-ci ildə T.V.Lomonosov adına MDU-nun Elmi Şurası Y.H.Məmmədəliyevin təbii və süni neft qazlarının kimyəvi emalı sahəsində apardığı sistemli tədqiqatları nəzərə alaraq ona müdafiə etmədən kimya elmləri namizədi alimlik dərəcəsi vermişdir.

Yusif Məmmədəliyev tərəfindən neft qazlarının və onların ayrı-ayrı komponentlərinin halogenləşməsi və onların əsasında qiymətli maddələrin alınması sahəsində dərin və orijinal tədqiqatlar neft kimyasını yeni tövsiyələrlə zənginləşdirmişdir. O, halogenləşmə sahəsində dünyanın ən nüfuzlu alimi idi. Heç də təsadüfi deyildir ki, 1960-cı ildə Parisdə keçirilən beynəlxalq simpoziumda halogenləşmə seksiyasına sədrlik ona həvalə edilmişdir.

Yusif Məmmədəliyevin rəhbərliyi ilə aromatik, parafin və tsikloparafin karbohidrogenlərin alkilləşməsi sahəsində sistemli fundamental elmi tədqiqatlar aparılmışdır. Onun katalizatorlarının iştirakı ilə alkil və dialkilaromatik karbohidrogenlərin dealkilləşməsi reaksiyası olduqca maraqdoğuran problemlərdən biridir. O, apardığı tədqiqatları ümumiləşdirərək 1942-ci ildə "Aromatik karbohidrogenlərin alkilləşdirilməsi və dealkiləşdirilməsi ilə toluolun sintezi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1943-cü ildə Neft kimyası ixtisası üzrə professor adına layiq görülmüşdür. Onun doktorluq dissertasiyası trotil partlayıcı maddəsinin alınması üçün ilkin xammal olan toluolun sənaye miqyasında istehsal prosesinə həsr edilmişdir. Toluol müharibəyə qədər xaricdən alınırdı. Lakin müharibə illərində bu maddənin satışı dayandırıldığı üçün ölkə kimyaçılarının qarşısında toluolun alınması problemi kəskin şəkildə qoyulmuşdur. Respublikamızda bu məsuliyyətli işin həlli Y.Məmmədəliyevə tapşırılmışdı. Bu şərəfli işin öhdəsindən ləyaqətlə gələrək benzolun metilxlorid və ya alüminiumun xlorid katalizatoru iştirakı ilə alkilləşdirilərək yüksək çıxım ilə toluolu sənaye miqyasında istehsal edilmişdi.

Yusif Məmmədəliyev ilk dəfə olaraq aromatik karbohidrogenlərin doymamış karbohidrogenlər ilə alkilləşməsi üçün sulfat turşusundan katalizator kimi istifadə etmişdir. Bu proses əsasında sənaye miqyasında zavod inşa olunaraq yüksək oktan ədədli izopropilbenzol istehsal edilmiş və SSRİ Müdafiə Nazirliyini yüksəkkeyfiyyətli aviasiya benzini ilə təmin edən komponent əldə edilmişdi. Onun bu sahədə apardığı tədqiqatlar dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1944-cü ildə "Lenin" ordeni ilə, 1946-cı ildə isə "Stalin" mükafatı ilə mükafatlandırılmışdır.

Yusif Məmmədəliyev 1945-ci ildə yeni yaradılmış Azərbaycan EA-nın ilk kimyaçı akademiki seçilmiş və həmin ildə də Azərbaycan EA nəzdində Neft İnstitutunu yaratmış və onun ilk direktoru işləmişdir. 1947-ci ildə isə Azərbaycan EA-nın prezidenti seçilmişdir. Həmin ildə, həmçinin SSRİ Neft Sənayesinin Texniki Şurasının sədr müavini vəzifəsində çalışmışdır. O, keçmiş SSRİ miqyasında ən nüfuzlu kimyaçılardan biri olmuşdur, SSRİ "Bilik" Cəmiyyətinin xahişi ilə 1959-65-ci illərdə "SSRİ Kimya Sənayesi" kitabını yazmaq ona həvalə edilmişdir. 1950-ci ildə şəxsiyyətə pərəstiş dövründə onu bəzi subyektiv səbəblərə görə prezident vəzifəsindən çıxarmışlar. O, 1951-1954-cü illərdə Azərbaycan EA-da Fizika, Kimya elmləri və Neft üzrə akademik katib vəzifəsində işləmişdir.

Yusif Məmmədəliyev 1934-cü ildən başlayaraq elmi-tədqiqat işləri ilə paralel olaraq Bakı Dövlət Universitetində assistent, dosent və professor vəzifəsində çalışmışdır. 1945-ci ildə BDU-da Neft kimyası kafedrasını yaratmış və ömrünün axırına kimi ona rəhbərlik etmişdir. 1954-58-ci illərdə BDU-nun rektoru olmuşdur.

Akademik Yusif Məmmədəliyevin yüksək elmi təşkilatçılığını nəzərə alaraq 1958-ci ildə o, ikinci dəfə Azərbaycan EA-nın prezidenti seçilmişdir. O, qeyri-adi elmi təşkilatçılıq qabiliyyətinə malik idi. Hələ 1947-ci ildə prezident işlədiyi vaxt akademiyada çalışanların sayını 1000 nəfərdən 5000 nəfərə çatdırmışdı. Onun təşəbbüsü ilə akademiyada Şamaxı Rəsədxanası, Əlyazmalar fondu yaradıldı. Onun rəhbərliyi ilə neft-kimya sahəsindəki tədqiqatları daha da dərinləşdirmək üçün V.V.Kuybışev adına Azərbaycan Neft Emalı Elmi-Tədqiqat İnstitutu Azərbaycan EA Neft İnstitutunu birləşdirildi və hazırda onun adını şərəflə daşıyan Neft-Kimya Prosesləri İnstitutu yaradıldı.

Akademik Yusif Məmmədəliyevin elmi fəaliyyəti heç də müxtəlif karbohidrogenlərin alkilləşməsi və halogenləşməsi reaksiyası ilə məhdudlaşmamışdır. Onun tərəfindən, həmçinin Bakı neftlərinin benzin fraksiyaları katalitik aromatikləşdirilib, yüngül neft yağları katalitik yolla keyfiyyətini yaxşılaşdırıb və piroliz məhsullarını polimerləşdirməklə plastik kütlələrin alınması sahəsində fundamental tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. O nəinki respublikamızda neft kimyasının, neft emalının və üzvi sintezin banisidir, həmçinin polimerlər kimyasının yaradıcısıdır. Böyük ensiklopedik bilik dairəsinə malik olan akademik Yusif Məmmədəliyev Naftalan neftinin müalicəvi əhəmiyyətinə dair tədqiqatlar da aparmış, ilk dəfə olaraq müəyyən etmişdir ki, Naftalan neftinin müalicəvi xassəsi onun tərkibində olan $250-328^0$ C intervalında qaynayan çoxhəlqəli birləşmələrlə əlaqədardır. Onun tərəfindən Binəqədi bitumları da tədqiq edilmiş və müəyyən edilmişdir ki, onların tərkibində azot olan bitki və heyvan mənşəli piqmentlər-porfirinlər mövcuddur. Bu isə neftin üzvi maddələrdən əmələ gəlməsi nəzəriyyəsini bir daha təsdiq edir.

Yusif Məmmədəliyevin daha bir maraq dairəsi elmin tarixi olmuşdur. Onun 1960-cı ildə yazdığı "Azərbaycanda elmin inkişafı" kitabı bu sahədə yazılan əsərlərin təməl daşı olub, 22 elmin inkişaf tarixi haqqında icmal xarakteri daşıyır. O, Rusiyada, respublikamızda kimya elminin tarixinə dair bir sıra məqalələr, məruzələr və sair yazmışdır. Onun 1951-ci ildə öz müəllimi akademik N.D.Zelinskinin həyat və fəaliyyətindən bəhs edən əsəri diqqətə layiqdir. Rusiyada neft-kimya elminin inkişafına dair məruzəsində Rusiya neft-kimya elminin keçdiyi inkişaf mərhələlərinin və ayrı-ayrı görkəmli kimyaçı alimlərin neft-kimya elminə verdiyi töhfələrin xronikasını ətraflı şərh etmişdir. Təəssüflər olsun ki, onun "Polşada neft-kimya elmi" və "Neft əmələ gəlməsi və istifadə tarixi" məqalələri yarımçıq qalmışdır.

Akademik Yusif Məmmədəliyevin 30 illik elmi və pedaqoji fəaliyyəti 200-dən artıq sanballı elmi əsərdə, o cümlədən 6 monoqrafiyada əks edilmişdir. Onun əsərləri nəinki keçmiş SSRİ-də, hətta onun xaricində də yüksək qiymətləndirilmişdir. O, 36 elmlər doktoru və namizədi hazırlamışdır. Onun yetişdirdiyi aspirantlardan 3-ü Azərbaycan EA-nın həqiqi, 5-i isə müxbir üzvü seçilmişdir. O, ABŞ, Fransa, İngiltərə, Polşa, Monqolustan və digər ölkələrdə çağrılan Beynəlxalq elmi konqres və simpoziumlarda respublika kimya elmini ləyaqətlə təmsil etmişdir.

Akademik Yusif Məmmədəliyev görkəmli kimyaçı olmaqla bərabər, çoxcəhətli ictimai fəaliyyətdə olan dövlət xadimi olmuşdur. O, dəfələrlə seçkili orqanlara seçilmiş və SSRİ Ali Attestasiya Komissiyasının üzvü olmuşdur.

1961-ci il dekabr ayının 15-də mürəkkəb olmayan cərrahiyyə əməliyyatından sonra böyük amallarla yaşayan Yusif Məmmədəliyev 55 yaşında həyatla vaxtsız vidalaşmışdır. Lakin ölümündən keçən bu illər ərzində o, heç vaxt unudulmamış, çoxsaylı tədbirlərdə yad edilmişdir. Onun barəsində istər ölkəmizdə, istərsə də ölkəmizin hüdudlarından kənarda görkəmli şəxsiyyətlər tərəfindən ən xoş fikirlər söylənilmişdir. Müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev demişdir: ***"Yusif Məmmədəliyev millətini, xalqını həddən artıq sevən adam idi, vətənpərvər bir insan idi, Vətəni haqqında, milləti haqqında, xalqı haqqında daim düşünən bir insan idi. Bu insanın siması həm zahirdən, həm də daxildən onun nə qədər yüksək keyfiyyətlərə malik olduğunu nümayiş etdirirdi. O, sözün əsl mənasında, ziyalı idi. Təkcə biliyinə görə yox, davranışına görə də, zahiri görünüşünə görə də, insanlarla danışıq tərzinə görə də, münasibətlərinə görə də ziyalı idi. Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəklər".*** Həyat Ulu Öndərin bu fikirlərini sübut etdi.

Akademik Yusif Məmmədəliyevin xatirəsini əbədləşdirmək məqsədilə Azərbaycan MEA Neft-Kimya Prosesləri İnstitutuna, Şamaxı Rəsədxanasının yerləşdiyi elmi qəsəbəyə və Bakı küçələrindən birinə onun adı verilmişdir. Ordubad şəhərində ev-muzeyi açılmış, büstü qoyulmuşdur. Bakı şəhərindəki İstiqlal küçəsində, Azərbaycan MEA Rəyasət Heyəti binasının yanında heykəli qoyulmuşdur. Qədirbilən xalqımız akademik Yusif Məmmədəliyevin xatirəsini həmişə uca tutmuş və bundan sonra da belə olacaqdır. Onun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 iyul tarixində imzaladığı Sərəncam bunu bir daha sübut edir.



**Tofiq ƏLİYEV**
***AMEA-nın müxbir üzvü, professor, NDU-nun Təbii Ehtiyatlar İnstitutunun baş direktoru***

# Burada yad adam yoxdur





✍ Ceyhun MƏMMƏDOV

...Sanki bütün təbiət nəfəsini içinə çəkib qışa hazırlaşır Payızda. Fəslin son günlərində kəndin girişində insanı qarşılayan tək şey isə səssizlikdir. Hava bir az soyuqdur, sərtliyi hiss olunur, torpaqdan qalxan payız qoxusu isə insanı valeh edir. Kədərli əsən payız küləyi bu qoxunu sakitcə və qəribə bir tərzdə insanın bədənində dolaşdırır. Burada təbiətlə bərabər nəfəs aldıqda torpağın uzun bir yuxuya getməyə hazırlaşdığını hiss etmək mümkündür.

Şəhərin səs-küyündən uzaqda, bir-birinə boylanan dağların əhatəsində yerləşən bu kənddə payız danışmır, sadəcə, var olduğunu hiss etdirir: duman, sükut, torpaq qoxusu. Və kəndin girişindən başlayan yolu ağaclar sanki rəng mərasiminə "çevirib": sarıdan narıncıya, qırmızıdan qəhvəyiyə... Ləngərli rəqslərini isə külək əsdikcə bu yarpaqların "simasında" hər addımda görmək mümkündür. Payız burada təkcə bir fəsil deyil, həm də bir xatirə, sakitlik, ən əsası isə bir dövrdür. Payızda kənd adı kimi daha dərin, daha həssas görsənir.

Payızda bir şeyi hiss edirsən: həyətlərdə səliqə ilə düzülmüş odun yığınları, çardaq altına yığılmış ot tayaları, evlərin zirzəmisinə düzülmüş meyvələr sanki qışa göndərilən səssiz "məktublar"dır. Payız bu kənd üçün daha böyük önəm kəsb edir. Bəlkə, adına görə?! Əli Babayev deyir ki, payız fəslinin son günləri kəndə başqa cür toxunur: "Payızda torpaq tamam başqa qoxur, elə bil, illərin yığılan xatirəsini yenidən açır. Payızın bu kənd üçün önəmli olmasının səbəbi isə kəndin adı ilə bağlıdır. Payızlıq sahədə yerləşdiyinə görə kənd belə adlandırılıb, həmçinin bura köçlərin əksəriyyəti elə payız fəslində reallaşıb. Kəndin adı isə "payız" sözündən olub "uc, son nöqtə, ətək, dib" deməkdir". Bu sözləri eşidəndə kəndin niyə belə hisslə dolu olduğunu daha yaxşı anlayır insan. Payız burada, sadəcə, fəsil deyil, sanki kəndin ürəyindən çıxan bir nəfəsdir.

Kəndin yolları payızda həmişəkindən daha romantik, daha cəlbedici görünür. Dar, bəzən də səliqəsiz küçələri gəzdikcə torpaq bir az yaş, hava bir az ətirli, ürək isə qəribə bir yumşaqlıq içində olur. Bu yollardan keçən hər kəs sanki haradasa içində gizli bir xatirəni oyadır. Kənd sakinləri üçünsə bu yollardakı günlər həm yorğunluğun son anları, həm də rahatlığın başlanğıcıdır. Həyətdən-həyətə uzanan tüstü telləri kənd insanının isti nəfəsini xatırladır. Bu tellər onların həm bir-birinə bağlılığının, həm də qohumluğun göstəricisidir. Kənd sanki böyük bir ailənin evi kimidir: evdən evə gedən yolun uzunluğu azdır, amma insanların bir-biri ilə nə qədər yaxın olduğunu anlamaq üçün çox da uzağa getmək lazım deyil. "Burada yad adam yoxdur", – gülümsəyərək deyir kənd sakini İbrahim Orucov. Sözünə zarafatla davam edərək "Burada yad adam görsən, deməli, ya qonaqdır, ya da kiminsə kürəkəni (gülür)". Hamımız elə bir-birimizə qohumuq, kəndin ağacı da, daşı da qohumdur", – deyə davam edir sözlərinə. Onun dediyinə görə bir vaxtlar kiçik məkan olan Payıza Qərbi Azərbaycanın müxtəlif kəndlərindən köç edilib, zaman keçdikcə ailələr böyüyüb, genişlənib və bütöv kənd bir-birinə qohum zəncirinə çevrilib. Burada həyat yavaşdır, sakitdir, amma bir o qədər də şəndir. İnsanlar qohumluğun verdiyi güvənlə yaşayır, hər ev digərinin yükünə çiyin verir.

Kənd məktəbinə doğru enərkən uzaqdan uşaq səsləri gəlir. Saralmış, nəmli otlar üzərində qızılı yarpaqları toplayan uşaqlar sanki payızla yarışır – kimin yığdığı yarpağın rəngi daha gözəldir? Kimin tapdığı yarpaq daha bütövdür?.. Bu fəsildə uşaqlar da dəyişir, payız onları ilhamla doyurur. Sanki hər uşağın içində gizli bir duyğu oyanır.

Yorğun, amma xoşbəxt, soyuq, amma canlı, səssiz, amma öz içində yüz hekayə ilə dolu olan bu kənddə payızın bu günlərində evlərin üzərində gümüşü duman asılır, hər addımda torpağın nəfəsi duyulur. İndi torpağı xalça kimi bəzəyən yarpaqlar artıq ağacın dili deyil, küləyin ürəyidir: nə qədər əsirsə, bir o qədər pıçıldayırlar. Həyətlərdə yandırılan xəzəlin tüstüsü qalxır. O tüstünün qoxusu insanı illərin o tayına aparır. Bəzən tüstü içərisindən görünən közün işığı kəndin içindəki həyatın, istiliyin, kiminsə dəmlədiyi çayın, kiminsə yandırdığı sobanın, kiminsə pəncərə önündə qurduğu xəyalların işığıdır. Hər evin həyətindən yayılan işıq bu dumanın içində kiçik bir ümid nöqtəsi kimi görünür.



Payızda payızın sonu, əslində, kəndin nəfəs aldığı vaxtdır. Bu günlərdə kənd həm bitən mövsümün hüznünü, həm də gələn qışın dincliyini bir yerdə daşıyır. Burada hər şey qapanır, amma heç nə sıradan çıxmır, kənddə hər şey daha incə, daha yumşaq, daha ürəkdən olur. Sanki təbiətin özü də sevir bu anı: ağaclar sevgiyə bürünür, külək qucaqlayır, torpaq səni yormur...

Şəhərdən bir qədər aralıda yerləşən bu kənd, insanın unudulmuş hisslərini oyadan, tələskən dünyadan onu qoparıb aparan və qoynunda saxlayan bir məkan kimidir. Bu kənddə payız hər şeyə səssizcə toxunur: ağaca, torpağa, insana, xatirəyə… Burada həyat nə çox, nə də ki azdır, sadəcə, yetərincədir. Bəlkə də, elə buna görədir ki, insanlar bu kənddən ayrılmaq istəmir, çünki öz dilləri ilə pıçıldadığı bir həqiqət tapırlar: bəzən ən dərin səslər ən uzaq yerlərin sakitliyində eşidilir. Elə Payızın adı kimi...

*Azərbaycanın incisi Ordubadın Kotam kəndindəyəm. Gecələri xan Arazın laylası ilə yatıb, sübh tezdən quşların cəhcəhi, dağların gözəl mənzərəsi ilə oyanan bir yerdir bura. Uca dağların əzəmətinə, Arazın lal sularına, göz uzandıqca uzanan dəmir relslərə, Arazın o tayından keçib doğma Naxçıvana gələn yük maşınlarına, sərnişin avtobusuna baxıram. Yollar yorur gözlərimi. "Bu yollar bizi daha nə qədər anamız Azərbaycandan ayrı salacaq?" – deyirəm öz-özümə. Əhməd babanın səsini eşidirəm lap yaxınımda: "Az qalıb, o qatar tezliklə gələcək yerinə yetirilən bütün sözlər kimi".*

# O qatar ünvanına çatacaq yerinə yetirilən bütün sözlər kimi



✍ Ramiyə ƏKBƏROVA

Burada, bu kənddə doğulub, böyüyüb o. Bu yoldan keçən ilk qatarın da, son qatarın da səsini eşidib. Söhbətcildir Əhməd baba, baxır yollara, başlayır söhbətə:

"Bu dəmir yolu stansiyasından son qatar ötən əsrin 90-cı illərində keçmişdi, Kotam kəndinin sakinləri son fit səsini həmin gün eşitdilər. İllərdir, gözlər bu yolda qalıb. Çox səssiz olmuşdu gedişi. Baharın güllü-çiçəkli bir aprel günündə, 1992-ci ildə bu yoldan keçən qatarın dalınca baxanda ağlıma belə gəlməzdi ki, bu son qatar olacaq. Həmin günlər bizim, biz naxçıvanlıların ən çətin günləri idi. Yüz illər öncədən başlayan və qədim Azərbaycanı yarımcan edən planlar sayəsində biz anamız Azərbaycandan ayrı düşmüşdük. Sovetlər birliyi dönəmində bu yol açıq və təhlükəsiz olsa da, 1988-ci ildən sonra yollardan keçən avtomobil və qatarlara qənim kəsilən erməni quldurları öz fitnə-fəsadını işə salmışdı. Yolu kəsir, insanların üst-başlarını talan edirdilər.

Yaxşı yadımdadır, deyirdilər, ilk qatar 1941-ci ildə keçib buradan. Bakıdan Naxçıvana gələn qatar ilk olaraq burada (əli ilə köhnə binanı – Salamməlik stansiyasını göstərir) dayanırdı. Kimisi Bakıdan, Füzulidən, Şuşadan gələn qonağını, kimisi hərbi xidmətini bitirib qayıdan övladını, kimisi isə yaxınlarını qarşılayırdı. Bir də görürdün, insanların səs-küyü Arazın şaqqıltısına qarışıb. Gəlin də gəlirdi bəzən bu qatarlarda Naxçıvana. Elə buradaca bir-birinə qovuşub sevinən insanlar, toy yiyələri ilə əl-ələ tutub yallı gedirdi".

Gözləri dəmir relslərə zillənir, davam edir söhbətinə: "Bu stansiyadan Ağbəndə qədər 54 kilometrdir. Vaxt var idi, Zəngilandan, Füzuli rayonunun Horadiz qəsəbəsindən keçən qatarlar bizi Bakıya çatdırardı. İstədiyimiz vaxt gedərdik Bakıya, Zəngilana (köks ötürür). Bax bu gördüyünüz bağların ağacların (kənddəki xurma bağlarını göstərir) çoxunun tingini Qarabağdan gətirib kənd sakinləri həmin qatarlarla. Bu yollar 33 ildir ki, bizə dərd olub. Gecə-gündüz Arazın o tayında dağ yollarından keçib gələn avtobuslara, yük maşınlarına baxıram. Görən qatar nə vaxt gələcək ki, yollarımız yaxınlaşsın deyə düşünürəm. Artıq 87 yaşım var, sözün düzü, Vətən müharibəsi başlayana qədər ümidim az idi, bir də o qatarla Zəngilana gedə biləcəyimə. 2020-ci ildə igid oğullarımız bir həmlədə torpağımızı azad etdi və ümidlərimiz yenidən doğuldu. Talenin qismətinə baxın ki, atası Naxçıvanı 90-cı illərdə yox olmaq təhlükəsindən qurtarmışdı, oğlu, igid sərkərdə İlham Əliyev isə bizim bağlı yollarımızı açıb. Qələbədən sonra özümə ömür arzulayıram o günü görmək üçün. Vətən oğluna olan inancım məni yaşamağa səsləyir. Paytaxtdan illər sonra gələcək ilk qatarı qarşılamağa tələsirəm. Salamməlik stansiyasında xalqın Müzəffər Sərkərdəsini görüb ruhun şad olsun, Ulu Öndər, yurdun, doğma Naxçıvanın ana Vətənə qovuşdu demək üçün".

Bütün Naxçıvan gözləyir həmin günü. Qəlbimiz dilə gəlir Zəngəzur deyəndə. Ruhumuz qanad açıb yüz il öncə düşmənə peşkəş verilən o yurdların başı üzərində dolanır. Keçmişə boylanır, bu torpağın sakinlərinin necə çətin günlərdən keçib bu günə gəldiyini görürük. Biz ki, dünyanı lərzəyə gətirən Teymurləngə 14 il boyun əymədik, biz ki, qəlbimizdəki Vətən sevgisini silaha çevirib düşmənə qalib gəldik, biz ki, Vətən oğlunun ətrafında birləşib, "dəmir yumruğ"a dönüb torpağımıza göz dikən mənfurları darmadağın etdik, bunu da bacaracağıq. Çünki bu dövlətin Ata vəsiyyətini yerinə yetirən, hər sözünə sadiq olan, ürəyində bütöv Azərbaycan sevgisi daşıyan, damarında qanla bərabər Vətən sevgisi axan rəhbəri, Vətən oğlu var. Həmin gün gələcək və illər sonra qədim Azərbaycan torpağı olan Mehridən keçib Salamməlik stansiyasına daxil olan qatarın fit səsi təkcə Kotam kəndinin sakinlərini yox, bütün dünyanı oyadacaq. O qatar ünvanına çatacaq yerinə yetirilən bütün sözlər kimi.



# Tarixin gözətçisi – Əlincəqala

Havanın buludlu və solğun olmasına baxmayaraq, günəş yenə də buludlar arxasından boylanmağa can atır, sanki yeni günə şölələri ilə rəng qatmağa çalışırdı. Ətraf sarı-qızılı rəngli dona bürünüb həvəslə yeni libasını gözləyir. "Ən gözəl rəssam Allahdır", – deyirlər. Doğrudan da, İlahi qələmlə çəkilmiş təbiət mənzərələrinə heyran olmamaq mümkün deyil. Qarşıdan Haçadağın buludlar arxasında gizlənmiş silueti görünür gözlərimizə. Necə əzəmətli, necə vüqarlıdır. Azca yaxınlaşsaq, yanına yetəcəkmişik kimi hiss edirik. Amma sanki biz getdikcə dağ da bizimlə bərabər gedir. Çata bilmirik. Yolumuz əsrlərin yadigarı Əlincəqalayadır. Əslində, uzun müddətdir, bura getmək istəsəm də, müəyyən səbəblərdən qismət olmurdu. Qismət bu günəymiş, – deyib düşdüyümüz yolun son mənzilinə – dağlar qoynunda məskən salan Əlincəqalaya çatırıq.

Ətrafa baxarkən diqqətimi ilk çəkən bir az aralıdakı kiçik təpədə böyük hərflərlə yazılmış "Qarabağ Azərbaycandır!" sözləri olur. Bu iki kəlmə məni o qədər xoşbəxt edir ki. Qarabağımızı yenidən bizə bəxş edən igidlərimizlə bir daha qürur duyuram. Buraya ayaq basdığımız anda bizi ilk qarşılayan balaca istirahət guşəsi olur. Bu guşədə ən sevdiyim şey isə soyuq günlərdə cana istilik gətirən çayın ən gözəl dad aldığı samovarlar idi.

Ətrafa boylanıram. Gördüyüm mənzərə məni heyrətə gətirir. "Bura necə qalxacağam?" – deyə düşünmürəm desəm, yalan olar. Axı bu qədər pilləni qalxmaq elə də asan olmasa gərək. "Ya Allah", – deyib düzəlirik yola. Səliqə ilə döşənmiş daşlar yolları həm insanlar üçün daha rahat edir, həm də buranın görünüşünə xüsusi bir ahəng qatır. Bir az aralıda qızılı rəngdə günbəzi olan bir bina diqqətimi çəkir. Yaxınlaşdıqda buranın "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi olduğunu görürəm. 2 iş otağı və ekspozisiya zalından ibarət olan muzeyin ekspozisiya zalında Ümummilli Lider Heydər Əliyevin ***"Əlincəqala və bir çox belə abidələr Naxçıvanın qədim Azərbaycan torpağı olduğunu, azərbaycanlıların burada əsrlərlə, min illərlə yaşayıb yaratdıqlarını göstərir"*** fikri öz əksini tapıb. Burada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan nümunələr Əlincəqalanın qədimliyindən xəbər verir.

Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı yazılmış kitablar, məqalələr, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri də nümayiş etdirilən eksponatlar sırasındadır. Buradakı saxsı qab və çıraqlar, Əlincəqala ərazisindən aşkar olunmuş boyalı keramika parçaları Azərbaycanda sənətkarlıq ənənələrinin də qədim dövrlərdən formalaşdığını sübuta yetirir. Muzeydən ayrılıb yolumuza davam edirik. Pillələri bir-bir qalxdıqca bayaqdan əlçatan olan hər şeyi geridə qoyuruq.

Sıldırım qayaların üzərində bir qaraltı gözümə dəyir. Diqqətlə baxdıqda bunun iki dağ keçisi olduğunu görürəm. Yaşamaq üçün özünə buraları məskən seçmiş bu heyvanlar bir andaca gözlərimiz önündə yox olur. Yolumuza davam edirik. Arabir nəfəslənsək də, yenidən ayağa qalxır, tarixi məkana çatmağa tələsirik...

Sanki külək vıyıltısında top səsləri eşidilir, qayalar dil açıb qalanın yenilməzliyindən danışır: Uzun illər mühasirədə qaldı, yeri gəldi uçuruldu, yeri gəldi dağıdıldı, amma hər zaman dimdik dayandı. Neçə igid sığdırdı köksünə, neçə insana sığınacaq oldu. Hər çətinliyə dözərək əsrləri yola saldı bu qala.

Pillələrlə irəlilədikcə daş lövhə ilə rastlaşırıq. Burada Əlincəqalanın I-V əsrlərə aid olduğu qeyd olunub. İlkin forması saxlanılmaqla təmir olunmuş qala divarları, bürc və giriş qapıları bu qədim məkanın ruhunu daha aydın əks etdirir. Ən qədim dastanımız Kitabi-Dədə Qorqudda belə adıçəkilən və möhkəm istehkam kimi təsvir olunan bu qala tarixin bizə əmanətidir. Xalqımızın əyilməzlik simvolu olan qala 14 il ərzində Əmir Teymurun hücumlarına məruz qalmış, hər dəfəsində qəhrəmanlıqla müqavimət göstərmişdir. Hələ də mübarizənin izlərini özündə daşıyan qalanın zirvəsinə çatmağımıza az qalıb.

Bu qayaların üzərində əsrlər əvvəl zülmün qarşısında diz çökməyən bir insan dolaşıb. Bu insan həqiqət carçısı Fəzlullah Nəimidir. Burada onun cahana sığmayan mübarizəsi canlanır gözlərimiz önündə. İsti nəfəsi hopub sanki qala divarlarına. İnsana və onun qüdrətinə dəyər verən, onu xüsusi qiymətləndirən Nəimi sanki hələ də hayqırır:

*...Bizdən alır əmri cümlə aləm,*
*Bizdən doğulub sevinc ilə qəm.*
*Sellər yaranıbdı qətrəmizdən,*
*Min mənа olundu bir sözə cəm…*

Miranşahın əmri ilə bu qalada həyatına son verilən Nəimi Əlincə Xanəgahı deyilən yerdə dəfn edilmişdir. Bu yer bu gün Culfa rayonundakı Xanəgah kəndidir.

Qalaya çatırıq. Zirvədə ucaldılmış, qürurla dalğanan üçrəngli bayrağımız min illərin küləyi ilə rəqs edərkən Vətənimin keçdiyi ağır günləri xatırlayıram və bu ağır sınaqlardan necə üzüağ, alnıaçıq çıxdığımızı.

Qalada qazıntılar zamanı yaşayış və ictimai məkanlar, tövlə, anbar, təndir, ovdan, yeraltı su xətləri və sair aşkar edilmişdir.

Yüksəkdə bir daş üstündə əyləşib bu gözəl mənzərəyə tamaşa edirəm. Bu mənzərə sanki bir rəssamın böyük səbir və sevgi ilə çəkdiyi tabloya bənzəyir: mavi səma, nazik bir örtük kimi təpələri saran buludlar, göy üzündə qanad çalan quşların nəğməsi… İnsan belə gözəllikləri görməkdən doyarmı heç?!

Artıq yorulsaq da, bu yerə gəlib çatmağın, bu gözəlliklərə şahid olmağın haqlı qürurunu yaşayırıq. Amma hələ oturmaq vaxtı deyil, daha bizi gözləyən pillələr var. Bir müddət sonra sayını itirdiyim bu pillələr bizi zirvəyə aparır. Buradan qalanın möhtəşəm mənzərəsini, yaxınlıqda yerləşən kəndləri seyr edirik. Bu anda iki qartal başımız üstündə pərvazlanır. Nəyi sübut etmək istəyir bizə bu qartallar? Zirvələrin onlara məxsusluğunumu, yoxsa qartal görünümlü Vətənimin daim azadlığa qanad açdığınımı?

Tarixi məkandan ayrılmağın vaxtıdır artıq. Burada keçmişin qoxusunu, bu günün nəfəsini, gələcəyin səsini duyduq. Həvəslə qalxdığımız pillələrlə geriyə qayıdarkən bütün bunları arxada qoysaq da, bir şeyi yenidən dərk edirik ki, bu qala daha neçə əsrlər Vətənimin qədimliyini, mübarizliyini, toxunulmazlığını sübut edən abidə kimi dağlara nəzarət edəcək.

✍ **Türkanə ƏSƏDOVA**



## Naxçıvan məktəbliləri "Uşaq İncəsənət Festivalı 2025" qalibləri sırasında yer alıb

*Azərbaycan Respublikası Mədəniyyət, Elm və Təhsil nazirliklərinin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən Uşaq İncəsənət Festivalı (UİF) ölkəmizdə uşaqlar üçün təşkil olunan ən geniş-miqyaslı incəsənət yarışmasıdır. İlk dəfə 2023-cü ildə keçirilən festivalda fərdi və kollektiv nominasiyalar üzrə, ümumilikdə, 408 qalib olub. İkinci dəfə keçirilən festivalın əsas məqsədi uşaqlarda incəsənətə marağı artırmaq, yaradıcılıq potensialını üzə çıxarmaqdır. Biz də festivalın naxçıvanlı qaliblərini oxucularımızla tanış etmək üçün onlarla görüşdük.*







Qeyd edək ki, festivala Naxçıvan Şəhər Ərtoğrol Cavid adına 6 nömrəli İncəsənət Məktəbindən qatılan Fatimə Hüseynzadə II yerə, Naxçıvan Şəhər 2 nömrəli İncəsənət Məktəbinin "İncilər" rəqs kollektivi III yerə, Ordubad Şəhər İncəsənət Məktəbinin şagirdi Qumru Fərəcova III yerə, Ordubad Şəhər İncəsənət Məktəbinin xor kollektivi isə II yerə layiq görülüb. Biz də onlarla yaxından tanış olub təəssüratlarını öyrəndik.

Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbinin fortepiano ixtisası üzrə tələbəsi Hüseynzadə Fatimə qaliblər sırasında yer alıb. O deyir ki, festivala fortepiano ixtisası üzrə VII sinif şagirdi olaraq qatılıb. I turda Cövdət Hacıyevin "Ballada", II turda Adil Bəbirovun "Prelüd Skertso", III turda isə M. Qlinka və M. Balakirevin "Torağay quşu" əsərlərini ifa edib.

"Çox sevincliyəm, çünki final mərhələsində yekun qiymətləndirmənin nəticələrinə əsasən 14-17 yaş qrupunda piano ifaçılığı nominasiyası üzrə peşəkar kateqoriyada II yerə layiq görüldüm. Bu uğurda dəstək olan müəllimlərimə və valideynlərimə təşəkkürümü bildirirəm".

Qeyd edək ki, Fatimə 2021-ci ildə uşaq və gənclər arasında keçirilən ifaçılıq müsabiqəsində II yerə, 2023-cü ildə isə eyniadlı müsabiqədə III yerə layiq görülüb. 2022-ci ildə Ərtoğrol Cavid adına Musiqi Məktəbində öz solo konsertini təqdim edib. Həmçinin 2024-cü ildə isə "Gənclik" Mərkəzində ikinci solo konsertini keçirib.

Naxçıvan Şəhər 2 nömrəli İncəsənət Məktəbinin "İncilər" rəqs kollektivi III yerin qalibi olub. Məktəbin müəllimi Fatimə Kazımova bildirdi ki, 2025-ci ildə Bakı şəhərində keçirilən Uşaq İncəsənət Festivalında kollektiv ilə birlikdə iştirak etmək böyük məsuliyyət və qürur idi. Festivalın milli rəqs nominasiyası üzrə şagirdlər 3-cü yerin qalibi oldular.

"İncilər" kollektivi bu festivalda ilk dəfə iştirak etmirdi. 2023-cü ildə də Uşaq İncəsənət Festivalında iştirak etmiş və milli rəqs nominasiyası üzrə II və III yerlərə layiq görülmüşdük. Əldə olunan nəticələr sonrakı fəaliyyətimiz üçün mühüm stimul oldu. Festival çərçivəsində uşaqlar "Oyna gülüm" milli rəqsini ifa etdilər. Rəqsin ifasında milli ruhun, səhnə mədəniyyətinin qorunmasına xüsusi diqqət yetirildi. Bu cür festivallar uşaqların milli incəsənətə marağının artmasında və istedadların üzə çıxarılmasında mühüm rol oynayır", – deyə Fatimə Kazımova qeyd etdi.

Ordubad Şəhər İncəsənət Məktəbinin direktoru Zülfiyyə Seyidova deyir ki, Qumru Fərəcova və məktəbin xor kollektivi Uşaq İncəsənət Festivalında əldə etdikləri uğurlarla yadda qalıblar. Məktəbin "Səda" xor kollektivi 2006-cı ildən etibarən muxtar respublikada keçirilən müsabiqələrin daimi laureatıdır. Xormeyster, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Səbinə İbrahimovanın rəhbərliyi ilə kollektiv müxtəlif illərdə muxtar respublika qalibi olaraq Bakı şəhərində təşkil olunan xor kollektivləri arasında müsabiqələrdə çıxış etmək imkanı qazanıb. "Səda" xor kollektivi 2025-ci il Uşaq İncəsənət Festivalının final mərhələsində də uğurla iştirak edib. Direktorun sözlərinə görə, məktəbin skripka ixtisası üzrə VII sinif şagirdi Qumru Fərəcova da uğurları ilə Ordubad Şəhər İncəsənət Məktəbini layiqincə təmsil edən istedadlı şagirdlərdəndir. Festivalın yekun nəticələrinə əsasən Ordubad Şəhər İncəsənət Məktəbinin şagirdi Qumru Fərəcova III yerə, məktəbin xor kollektivi isə II yerə layiq görülüb.

Bütün bu uğurlar, qazanılan nəticələr Naxçıvanın mədəni həyatında gənc istedadlara göstərilən diqqət və qayğının ifadəsi olmaqla gələcək uğurlar üçün möhkəm zəmin yaradır.

✍ **Bülbül RÖVŞƏNQIZI**

# Qədim musiqi alətlərinə yeni nəfəs verən ustad – İxtiyar Seyidov









Naxçıvan Dövlət Universitetinin Sosial mərkəzinə getdiyimiz zaman binanın 2-ci mərtəbəsində qulağımıza həzin bir musiqi səsi gəldi. Bu səsi dinləyə-dinləyə həmin otağa yaxınlaşdığımızda buranın musiqi alətləri hazırlanan emalatxana olduğunu öyrənirik. Elə yenicə içəri daxil olmuşduq ki, bu musiqi sədaları altında bizi həmin musiqi alətlərinin yaradıcısı İxtiyar Seyidov qarşılayır. Bizi görən kimi ustad ifasını dayandırıb gülər üzlə "Xoş gəlmisiniz", – dedi. Emalatxanaya göz gəzdirdiyimizdə bizi maraqlı və bir-birindən fərqli qədim musiqi alətləri qarşılayır.

Şahbuz rayonunun Kükü kəndində, ziyalı ailəsində anadan olan İxtiyar Seyidovun musiqi sənətinə marağı uşaqlıq illərindən başlayıb. Həmçinin onun orta məktəbdə oxuduğu dövrdə ilk bərpa etdiyi musiqi alətləri saz, tütək, ney və balaban olmuşdur. Sanki o öz taleyini hələ erkən yaşlarından musiqiyə və qədim ənənələrin qorunmasına bağlamışdı.

Məktəbi bitirdikdən sonra Naxçıvan Politexnik Texnikumunda aldığı təhsil, Estetik Tərbiyə Mərkəzində keçirdiyi illər, Naxçıvan Dövlət Universitetindəki peşə yolunda atdığı addımlar, bir məqsədə xidmət edirdi: unudulmaqda olan musiqi alətlərini yenidən həyata qaytarmaq.

Onun həmin illərdə bərpa etdiyi alətlərin siyahısı, sadəcə, adlardan ibarət deyil, həm də keçmişə açılan bir qapıdır. O, bərbət, rud, çoğur, qolça qopuz, oğuz qopuz, ud, çəng, qanun, tənbur, tar, kamança, səntur, tütək və sair kimi digər qədim musiqi alətlərinə yenidən həyat vermişdir.

Hazırda Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində Musiqi Alətləri Emalatxanasının müdiri və Naxçıvan Musiqi Kollecinin müəllimi vəzifəsində çalışır. Söhbət zamanı divarda asılı duran qədim musiqi aləti "Naxçıvan tənburu" gözümüzə dəyir. Usta bu alətə başqa bir ad da verib: "Turan aləti". Bu adın özündə dərin bir tarixi yaddaş və birlik ideyası gizlənir. Söhbətimizə elə bu alətin yaranma tarixindən başladıq. İxtiyar Seyidovun sözlərinə görə, Turan alətinin hazırlanmasında əsas ideya türk dövlətlərinin birliyini, ortaq köklərini və mədəniyyət birliyini musiqi dili ilə ifadə etmək olub. Onun dediyi kimi: "Bu alət bizim kimliyimizi xatırladır. Bizim kökümüz birdir və biz hər zaman birliyi təbliğ etməliyik". Turan aləti həm ad baxımından, həm də tarix baxımından musiqi alətlərindən seçilir. O, türk xalqlarının ortaq musiqi düşüncəsini bir simvolda birləşdirən qədim musiqi



alətidir. Ustanın verdiyi izaha əsasən, bu alətin özünəməxsus forması, səslənməsi türk mədəniyyətinin qədim qatlarına bağlılığı ilə seçilir. İxtiyar Seyidov qədim musiqi alətlərini canlandırarkən yalnız ustalıq göstərmir, həm də hər bir alətin tarixini, onun necə canlandırılacağını araşdırır.

Emalatxanaya göz gəzdirdiyimiz zaman diqqətimizi çəkən alətlərdən biri də səntur oldu. Onun tarixi haqqında soruşduqda, İxtiyar müəllim belə izah edir: "Səntur yatıq sazlar ailəsinə mənsub olan bir alətdir. Qanun, nüzhə və bu tipli digər alətlərlə eyni kökdən gəlir". Usta əlavə edir ki, əfsanələrə görə Davud peyğəmbər bir sıra musiqi alətlərinin, o cümlədən sənturun yaradıcısı hesab olunur. Bu inanışın izləri həm dini mənbələrdə, həm də Şərq mədəniyyətində öz əksini tapır. İxtiyar Seyidovun emalatxanasında sənturun bərpa edilmiş nümunəsini görmək isə təsadüfi deyil o bu aləti təkcə bərpa etmir, həm də qədim musiqi ənənəsinin bugünkü davamı kimi yaşadır. Bu alət haqqında danışarkən usta ayağa qalxaraq sənturu ifa etməyə başladı. O an bir daha gördük ki, İxtiyar Seyidov yalnız ustad sənətkar deyil, həm də yüksək zövqlə ifa edən dəyərli bir musiqiçidir. Sakitcə dayanıb onun ifasına qulaq asdıqda insanın içində bu sənətə qarşı xüsusi bir maraq oyanır. Musiqinin səsi ruhu oxşayır, adama bir rahatlıq bəxş edir, sanki zaman dayanır.

### *Sevgiylə düzəldilmiş alətlər*

İfa bitdikdən sonra söhbətimizə davam etdik. Bizə yalnız öz sənətindən deyil, həm də həyatının ən böyük dayaqlarından biri olan yanında çalışan həyat yoldaşından danışır. Bu yolda onun ən sadiq yolyoldaşı, həyat yoldaşı Həvva xanımdır… Onların 32 illik ailə həyatı, elə bil, iki uyumun bir alətdə birləşməsi idi. Onlardan biri düzəldir, biri naxışlayır, biri də yaradır, biri gözəllik qatır.

Qədim musiqi alətlərinin hazırlanmasını bir də Həvva xanımın dilindən eşitmək istədik. Onun sözlərinə görə, hər hansı bir qədim alət üzərində işləməyə başlayanda proses heç vaxt rəsmlə başlamır, hər şey axtarışla başlayır. Bəzən köhnə bir şəkilin güclə görünən küncündə qalmış xırda bir detalı tapmaq üçün saatlarla araşdırma aparırlar. Bəzən bir alətin görünməyən tərəfini aydınlaşdırmaq üçün müxtəlif mənbələri müqayisə edir, bəzən də tarix kitabları, qədim təsvirlər arasında itmiş bir iz axtarırlar. Sonra çertyoja keçirlər aydın olmayan xətləri yenidən qurur, zamanın silib-apardığı ölçüləri hissə-hissə bərpa edirlər. Bu prosesdə heç nəyi tək etmirlər: hər addımda biri digərinin fikrini tamamlayır, birinin əli o birinin əlinə dayaq olur. Sanki iki nəfər deyil, tək ürək kimi işləyirlər. Həvva xanımın sözlərindən də hiss olunur ki, onun İxtiyar müəllimə olan sevgisi təkcə ailə bağlarından ibarət deyil, bu sevgi həm də sənət sevgisi ilə tamamlanır. O deyir ki, ailə həyatı qurduqdan sonra İxtiyar müəllimin yolu ilə addımlamağa başlayıb, əslində, bu yol ona çox da yad deyilmiş. Ustanın düzəltdiyi alətləri hələ evlənməzdən əvvəl də tanıyırmış, həmin alətlərlə olan ifalara da bələd imiş. Bu məqam onların hekayəsini daha da gözəlləşdirir və bir məqsəddə birləşdirir.

Həvva xanım deyir ki, insan bu sənətə istər-istəməz bağlanır. "Çünki hər alətin içində böyük bir səbir yatır", – deyərək o gülümsəyir. Qəliblənməsi, quruması, ölçülərin dəqiqləşdirilməsi – hər bir mərhələ diqqət, incəlik və zaman tələb edir. Bir alətin tam şəkildə öz formasını alması azı üç ay vaxt aparır. Hər keçən gün alətə bir addım daha yaxınlaşır, onun tam və bütöv olmasını səbirsizliklə gözləyirlər. Və nəhayət, alət hazır olanda yalnız bir sənət nümunəsi yaranmır, həm də bir ailənin əməyi ortaya çıxır.

İxtiyar müəllim gülümsəyərək belə deyir: "Düşünürəm ki, bu alətlər bizim üçün dəyərlidir, onların itməməsi üçün əlimdən gələni edirəm. Hər kəs öz tarixini qoruyub saxlamağı bacarmalıdır. Bizim tariximiz dəyərlidir. Təkcə qədim musiqi alətləri deyil, adət-ənənələrimizi də daim yaşatmalıyıq".

Bu sözlər onun yaratdığı hər bir alətin arxasında dayanan düşüncəni, milli mədəniyyətə olan məsuliyyətini və gələcək nəsillərə miras qoymaq istəyini bir daha təsdiqləyir. Bu gün İxtiyar Seyidov həm müəllim, həm də zaman içində itmiş səsləri geri qaytaran bir sənətkardır.

**Zəhra VƏLİYEVA**

## Naxçıvan Dövlət Texniki Kollecindən beynəlxalq təhsilə tarixi addım







Naxçıvan Dövlət Texniki Kolleci ilə Türkiyə Respublikasının İğdır şəhərində yerləşən Milli Eğitim Vakfı Anadolu Lisesi arasında yeni əməkdaşlıq mərhələsi təsdiqlənib. İmzalanan memorandum iki qardaş ölkə arasında təhsil əlaqələrinin genişləndirilməsi, birgə layihələr, müəllim-tələbə mübadiləsi və mədəni proqramların həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu çərçivədə kollec rəhbərliyi, müəllim heyəti və 10 tələbədən ibarət nümayəndə heyəti ikigünlük işgüzar səfər üçün İğdır şəhərinə yollanıb. Səfərdə iştirak edən tələbələrdən bir neçəsi təəssüratlarını "Şərq qapısı" ilə bölüşüb.

Tələbələrdən Samirə Cəfərova İğdır Milli Eğitim Vakfı Anadolu Liseyində keçirilən ilk görüşün nümayəndə heyətinə dərin təsir bağışladığını deyib: "Lisey rəhbərliyi, müəllimlər və şagirdlər bizi çox səmimi qarşıladılar. Görüş zamanı təhsil sistemləri, həyata keçirilən layihələr və dərs imkanları barədə geniş fikir mübadiləsi apardıq".

Samirənin sözlərinə görə, bu onun üçün həm öyrədici, həm də motivasiyaedici bir təcrübə olub: "Bizim orada çox maraqlı günlərimiz keçdi, suallar verdilər, öz təcrübələrini paylaşdılar. Burada öyrəndiklərimin gələcəkdə təhsil həyatımda çox işimə yarayacağına əminəm. Həmçinin Azərbaycan-Türkiyə dostluğunu, Naxçıvanın qədim mədəni irsini və milli dəyərlərimizi əks etdirən çıxışlarımız İğdır təhsil ictimaiyyəti tərəfindən böyük maraqla qarşılandı. Mən ümid edirəm ki, imzalanmış memorandum gələcəkdə daha geniş layihələrin həyata keçirilməsinə təkan verəcək və tələbələr üçün yeni imkanları yaradacaq".

Gülər Rəsulova isə qeyd edir ki, İğdırda özlərini yad kimi hiss etməyiblər: "Oradakı tələbələr və müəllimlər çox mehriban və səmimi idilər, hər şeydə bizə kömək etdilər. Tədbirimiz zamanı səhnədə olmaq həm həyəcanlı, həm də çox qürurlu hiss idi. Səfər zamanı ən çox marağımı çəkən Tuzluca duz mağarası oldu. Ora bizi, həqiqətən, çox heyrətləndirdi. Mağaranın içi həm maraqlı, həm də fərqli bir mühit idi. Həmçinin oradakı tələbələrlə söhbət edib onları tanımaq bizim üçün maraqlı oldu. Bu səfər bizə yeni dostlar, gözəl xatirələr və unudulmaz günlər qazandırdı".

Digər bir tələbə İbrahim Əkbərov isə səfər ekskursiyalarından söz açdı: "Ən çox xoşuma gələn yerlərdən biri İğdır Anıt Qəbri oldu. Ora daxil olanda atmosfer tam başqa idi, sakitlik və hörmət hissi adamı dərhal tutur. Anıt Qəbrinin muzey hissəsi də maraqlı idi. Oradakı şəkilləri görəndə elə bil tarixi canlı şəkildə hiss etdim. Gəzinti boyunca həm yeni məlumatlar öyrəndik, həm də şəhəri daha yaxından tanıdıq. Səfər zamanı həm əylənməyimiz, həm də öyrənməyimiz günümüzü daha da maraqlı edirdi. Mənim üçün bu səfər həm yaddaqalan, həm də dəyərli bir təcrübə oldu", – deyə tələbə bildirir.

Memorandum çərçivəsində gələcəkdə həyata keçiriləcək layihələr, müəllim və tələbə mübadiləsi, eləcə də mədəni proqramlar iki qardaş ölkə arasında təhsil sahəsində əlaqələri daha da inkişaf etdirəcək. Bu təcrübə həm tələbələrin, həm də kollec heyətinin peşəkar inkişafına töhfə verir və Azərbaycan-Türkiyə dostluğunu gücləndirir.

**Elnurə CƏFƏROVA**
**Səmayə RƏSULOVA**

# İtən səslər, solan həyatlər: bizim nəsli yetişdirən oyunlar harada qaldı?





Bir vaxtlar məhəllənin həyətlərində səhər açılar-açılmaz ayaqyalın qaçan uşaqlar görünərdi. Toz qalxardı, torpaq qoxusu havaya yayılardı. Biri “Məni tap!”, o biri “Gəl, bir dəfə də oynayaq!” – deyə qışqırardı. Bu gün isə eyni məhəllədən keçəndə qulaq batıran bir sakitlik var; küçələr uşaq səsi eşitməyə həsrət qalıb sanki. Biz böyüdük, o səslər yoxa çıxdı. Elə bil, kiminsə görünməyən əli uşaqlığımızın üstündən pərdə çəkdi və zaman hər şeyi öz içində uddu. Bəzən mənə elə gəlir ki, həmin illər yuxu kimi keçib. Amma hər nostalji bizi yenidən həmin günlərə aparır: tozlu həyətə, gün ərzində unudulmuş dərslərə, axşam ananın qapıdan ucadan çağırdığı səsə… Və biz fərqinə varırıq ki, uşaqlığımız elə oyunlarımızın özüdür. Elə bil, bizim uşaqlığımızı bir qaranlıq sandığa qoyub üstünü kilidləyiblər. Sandığın ağzı açılsa, içindən torpaq qoxusu, bənövşə ətri, ayaqyalın qaçış səsləri çıxacaq.

Gizlənqaç, sadəcə, bir oyun deyildi, uşaqlıq fəlsəfəsi idi. Hər gizlənən uşaq içində bir arzunu gizlədirdi. Hər axtaran uşaq içində bir ümid saxlayırdı. Dalanda gizlənərkən keçirdiyimiz qorxu, qaranlıq həyətin küncündəki həyəcan, tapılanda həm qorxub, həm də gülmək, bunların heç biri telefonda olan “oyun”larla ölçülə bilməz. Çünki o vaxt tapılan uşaq bir insan idi. İndi isə uşaqlar ekranın içində gizlənib, biz onları tapa bilmirik.

Yeddi daş oyununda sanki taleyin öz düsturu vardı. Daşların dağıdılması məğlubiyyət kimi görünürdü, amma birlikdə onu yenidən yığmaq birliyin, dostluğun, güvənin simvolu idi. Qaçırdıq, nəfəsimiz çatmırdı. Həyəcan bizə qanad verirdi. İndi isə uşaqlar ayağına deyil, barmaqlarına güvənir ekranda sürüşdürmək üçün.



Duz-duz oynamaq bir növ məhəlləni oyatmaq idi. Qapı döyülür, uşaqlar qaçır, həyətlərdə gülüş səsi yayılırdı. Qonşuların yarızarafat, qəzəbli baxışları hələ də hafizəmizdədir. Bu gün qapılar var, amma döyülmür. Qonşular var, amma tanımırıq. Məhəllə var, amma uşaqlar gözə dəymir. Oyun, adətən, axşama yaxın, günəş şaxlığını itirdiyi, həyətbaca kölgəyə gömüldüyü saatlarda başlayardı. Küçənin ortasında, bəzən ağacın altında, bəzən həyətin daş döşəməsində uşaqlar bir yerə yığışardı. Özünəməxsus bir həyəcan, səhnəyə çıxan aktyor ciddiyyəti, oyuna girən döyüşçü cəsarəti vardı hamıda. Bir uşaq sayıcı seçilər, gözlərini yumub saymağa başlayardı: Bir… iki… üç… duzduz… Digərləri isə qaçıb gizlənər, nəfəsini belə içində saxlayardı ki, səsi “sayıcı”ya dəyib yerini bildirməsin. Bu oyunun ən maraqlı tərəfi gizlənənlərin şirin hiylələri, bir-birinə siqnal verməsi idi: “Əəə, gəl bura!”, “Orada tuta bilər!”, “Sakit ol, gəlir!” Pıçıltılar, qaçış səsləri, ayaq altından tozun qalxması… Bütün bunlar oyunun öz musiqisi idi.

Əlimizdə keçmişdən qalan ən saf görüntülərdən biri: bir qızın arxaya yığılmış saçları, dairəvi hərəkətlə yellənən ip, bir… iki… üç… sayan qızlar, ipin ayağa dolaşanda hamının gülməsi. “İpatlama” təkcə oyun deyildi. O, qız uşaqlarının ritm duyğusu, özünüifadəsi, sürəti və qəşəngliyi idi. Hər uşaq ipə girdikdə sanki öz səhnəsinə çıxırdı. Hər döngə uşaq inadının simvolu idi: bacaracağam! Bu gün ip atlayan qız görmək üçün ya videolara baxmalısan, ya da xəyallara qayıtmalısan. Həyətlər isə o ritmi illərdir eşitmir.

Kim deyir ki, biz uşaq olanda evimiz yox idi? Torpaq bizim üçün həm tikinti materialı idi, həm dünya idi. Bir az su, bir az xəmir kimi torpaq, bir az da fantaziya… Biz öz evimizi, sobamızı, otağımızı düzəldirdik. Miniatür qapılar, kiçik eyvanlar, çubuqdan hazırlanmış pəncərə çərçivələri… Torpaqdan ev qurmaq, əslində, uşağın dünyanı necə anladığının şəkli idi. Həyatın özünü anlamağa ilk addım idi. Bu gün uşaqlar torpağa belə toxunmur. Torpaqla oynamayan uşaq isə sanki dünyaya toxunmur.

“Bənövşə, bəndə düşə” – bu oyun yazın ilk ətri idi. Bənövşələr çıxanda sanki bütün məhəllə rənglənirdi. Uşaqlar sıra ilə dayanır, biri bənövşələri yığar, digəri bəndə (yəni çəmənliyə) düşərdi. Oyun həm rəqs kimi, həm yarış kimi idi. Həm də yazın nəfəsi idi – çiçək qoxulu, işıqlı, yüngül. Bənövşə bəndə düşə, bizdən sizə kim düşə, sadəcə, oyun deyildi: bu oyun baharın rəsmi açılışı idi. Təbiətin yenilənməsi ilə uşağın yenidən enerji toplaması arasında görünməz körpü idi. İndi isə bənövşələr var, amma onları qoxlamağa tələsən uşaq yoxdur. İtən uşaqlıq yox, tərk etdiyimiz uşaqlıqdır. Bütün bu oyunların hamısı bizi bir nəsil olaraq formalaşdırdı. Biz güldük, qaçdıq, yıxıldıq, qalxdıq. Ayağımıza daş dəydi, dizlərimiz yaralandı, amma xoşbəxt idik. Hərdən nostalji bizi sıxıb boğanda hər şeyi geri qaytarmaq istəyirik. Amma keçmişə qayıtmaq üçün zaman maşınına ehtiyac yoxdur. Bir bənövşə qoxusu, bir köhnə həyətdən keçmək, bir ip səsi yetər ki, içimizdəki uşağı oyatsın. Yox olan oyunlar yaddaşın tozlu rəflərində səbirlə dayanıb bizi yenidən çağırır.

✍ Günay HACIYEVA

# Voleybol üzrə “Suverenlik kuboku” uğrunda birinciliyə start verilib

Naxçıvan şəhərində “Konstitusiya və Suverenlik İli” çərçivəsində yeniyetmə oğlan və qız voleybolçular arasında “Suverenlik kuboku” uğrunda birincilik keçirilir.



İlk oyunlardan sonra Naxçıvanın “Möminə xatun” və “Naxçıvan” (oğlanlar) komandasının köməkçi məşqçisi Samil Hüseynov fikirlərini bizimlə bölüşüb: “Yarışın ilk günü kifayət qədər gərgin keçdi. Qızlarımızdan ibarət “Möminə xatun” komandası “Milli Aviasiya Akademiyası” komandası ilə qarşılaşdı. Oğlanlarla istədiyimiz nəticəni əldə edə bilməsək də, qızlarımız möhtəşəm oyun sərgilədilər və qələbə qazandılar. Biz bilirik və inanırıq ki, qızlarımızın potensialı bununla məhdudlaşmır. Yarışın hələ ilk günü olduğu üçün komandamız tam istədiyi oyunu nümayiş etdirə bilmədi. Buna baxmayaraq, qələbə qazandığımız üçün çox xoşbəxtik. Rəqib komandanı əzmkar oyununa görə təbrik edirik. Biz isə artıq qarşıdakı oyunlara köklənmişik. Sabah milli komanda ilə oyunumuz var və inanırıq ki, bu oyundan da qələbə ilə ayrılaraq final mərhələsinə adımızı yazdıracağıq”.

Yarışla bağlı fikirlərini bölüşən Naxçıvanı təmsil edən “Möminə xatun” komandasının kapitanı Zeynəb Babayeva isə oyunda qalib gələcəklərinə əvvəlcədən inandığını bildirib. O artıq 6 ildir, voleybolla məşğul olduğunu və gələcək hədəfinin daha böyük komandalarda oynamaq olduğunu deyib. Zeynəb Babayeva qeyd edib ki, idman yoluna atletika ilə başlasa da, sonradan voleybola keçib və bu seçim onun üçün uğurlu olub. Onun idealı Türkiyənin tanınmış voleybolçusu Zəhra Günəşdir. Kapitanın sözlərinə görə, oyunda qazandıqları qələbələr ona əlavə motivasiya verir: “Hər zaman oyunlarda məsuliyyətli olmağa çalışıram. Bu qarşılaşmada da ilk setdə bir qədər həyəcanlı idik, lakin sonradan toparlanaraq qələbə qazandıq. Bundan sonra meydana çıxacaq digər komandalara da uğurlar arzulayıram”, – deyə Zeynəb Babayeva bildirib.




# “Balaca aktyorlar” səhnədə

Dekabrın 15-də tarixdə Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Şəhər Təhsil Şöbəsinin və Naxçıvan Dövlət Film Fondunun birgə təşkilatçılığı ilə keçirilən “Balaca aktyorlar” müsabiqəsinin baxış və mükafatlandırma mərasimi baş tutub.

Münsiflər heyəti tərəfindən “ifa tərzi”, “səhnə mədəniyyəti” və “epizoda uyğun canlandırma” meyarları üzrə qiymətləndirmə aparılıb.



Sonda ən yüksək nəticə göstərən üç kollektiv – 3 nömrəli körpələr evi-uşaq bağçası I yer,



8 nömrəli körpələr evi-uşaq bağçası II yer, 12 nömrəli körpələr evi-uşaq bağçası isə III yerə layiq görülüb.

Qaliblər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə təltif olunub.

# Naxçıvanlı şahmatçılar Dubayda keçirilən turnirdə iştirak ediblər



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində “Grandmasters Chess Cup 2025” adlı beynəlxalq turnir keçirilib. Yarışa Azərbaycan daxil olmaqla, 9 ölkədən 25 şahmatçı qatılıb.

Ölkəmizi turnirdə təmsil edənlər arasında Naxçıvandan qrossmeyster Urfan Sevdimalıyev, beynəlxalq ustalar Pərviz Qasımov və Toğrul Həsənzadə də var.

Qeyd edək ki, dekabrın 20-də yekunlaşacaq turnir İsveçrə sistemi üzrə 9 turdan ibarətdir.

## Elan

Naxçıvan şəhəri, Naxçıvan Bələdiyyəsi Yanğından Mühafizə Sistemlərinin qurulması üçün müsabiqə elan edir. İştirak etmək istəyənlər dekabr ayının 20-nə qədər iştirak edə bilərlər.

*Ünvan: Naxçıvan şəhəri, Kazım Talıblı, ev 20.*

## İtmişdir

Şərur rayonu, Zeyvə kəndində yaşamış Rzayev Vaqif Hüseyn oğluna məxsus JN-317$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Düdəngə kənd sakini Cəfərov Məhəmmədəli Hüseyn oğluna məxsus AA-006597 inventar nömrəli torpaq sahəsinin plan-ölçüsü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kəndində yaşamış Cəfərova Məryəm Əsgər qızına məxsus JN-3853$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini İsayev Elxan Ləzgi oğluna məxsus JN-805$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kənd sakini İsmayılov Camal Sultan oğluna məxsus JN-503$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kənd sakini Cəfərov Qabil Baba oğluna məxsus JN-528$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbə sakini Hüseynov Vahid Nəcəfqulu oğlunun adına olan JN-1944$^{A}$ nömrəli, 10300058 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şıxmahmud kənd sakini Xıdırov Allahverdi Zülfüqar oğluna məxsus olan JN-332 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Qəhrəmanov Yaşar Qurban oğlunun adına verilmiş MN-0054886 seriya nömrəli zabitin şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Püsyan kəndində yaşamış Mahmudov Əmir Xanlar oğluna məxsus JN-1057$^{B}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kosacan kənd sakini Şəfiyev İsmayıl Xəlil oğluna məxsus JN-32 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çomaxtur kəndində yaşamış İsmayılov Rəfail Məhərrəm oğluna məxsus JN-243 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənd sakini Əsgərova Gülşən Məmməd qızına məxsus JN-473 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Yengicə kəndində yaşamış Həsənov Hüseyn Məmmədhüseyn oğlunun adına verilmiş JN-819$^{C}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 27, ev 2$^{B}$ ünvanında Quliyev Ağahüsen Şahhüsen oğlunun adına olan 13293 nömrəli, 104013022569-10301 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kənd sakini Mikayılov Qibləli Əli oğlunun adına olan JN-0170 nömrəli, 10800038 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Alışar kəndində yaşamış Nəcəfov Elmar Nəcəf oğlunun adına verilmiş JN-4$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kənd sakini Aynayev Hidayət Məhərrəm oğluna məxsus JN-377 nömrəli, 10311018 kodlu, 0,11 hektar həyətyanı torpaq sahəsinin şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Şahtaxtı kəndində yaşamış Seyidov Mirhüseyn Mirməhəmməd oğlunun adına olan JN-273$^{A}$ nömrəli, 10200028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 299

Nömrəyə məsul: Ceyhun Məmmədov, Rafiq Təhməzov, Elnurə Cəfərova

Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.